

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Naxçıvanın inkişafında yeni hədəf və prioritetlər




8

№ 099 (6782)

# SƏS

7 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

## Dəmir yumruq, güclü iradə, dəqiq hədəf - Qarabağa Böyük quruculuqla




5

PREZİDENT İLHAM ƏLİYEV: "Biz bu miqyasda dağıntıdan inkişafa doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik"

# Qarabağın Azərbaycan iqtisadiyyatında payı: talanmış yataqlar



15





## Rusiyalı politoloq: "Azərbaycan gözləməkdən yorulub"



12

## Özəl pensiya fondunun üstünlükləri və riskləri nədən ibarətdir?



4

## 50 milyardlıq tələb



11



## Dünyanın ən səsli-küylü şəhəri

13

## Messidən ərəblərə ŞOK: Transferdən imtina etdi!




16

# Kənd təsərrüfatına dövlət dəstəyi aqrar sahəni gücləndirir

## Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binasının açılışında iştirak edib

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Binanın hündürlüyü 12 metr olan foyesində "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltaraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb. Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada Ümummilli Liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.

Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm edir. Ağacın budaqları kompozisiyanın sağına - qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan Qələbəni müjdələyir.



"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır. Qeyd edildi ki, burada Ümummilli Liderə həsr olunan xüsusi "Heydər Əliyev-100" guşəsi də yaradılıb. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu Öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.

Nazirliyin yeni binası ilə tanışlıq zamanı qeyd olundu ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq, hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Diqqətə çatdırıldı ki, ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.










Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, aqrar sığorta mexanizminin tətbiqi aqrar sahənin dinamik inkişafına müsbət təsirini göstərir. Bunun nəticəsidir ki, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb. Həmin müddətdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb.

Subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilməsi, aqrar sahədə rəqəmsallaşma səviyyəsinin ildən-ilə artmasını təmin edir. Aqrar sahəyə dair müasir innovasiyalar və texnologiyalara, texnoloji yeniliklərə, kənd təsərrüfatı texnikasına, damazlıq heyvanlara əlçatanlığın təmin edilməsi, gübrə bazarının liberallaşdırılması sağlam rəqabət mühitinin formalaşmasına səbəb olub. Məhsul istehsalının artması kənd təsərrüfatı məhsullarının ixrac potensialını yüksəldib. Belə ki, ötən il ölkəmizdən xarici bazarlara 886,1 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac olunub. İxracın həcmi əvvəlki illə müqayisədə 1 faiz artıb.






# Azərbaycan Prezidentinin Türkiyə səfərində DİQQƏTİ ÇƏLB EDƏN MƏQAMLAR

**Prezident İlham Əliyevin sonuncu Türkiyəyə səfəri hər zaman olduğundan daha çox, olduqca əhəmiyyətli sayılır. Türkiyə prezidentinin andiçmə mərasimi ilə əlaqədar edilmiş səfər dünya ictimaiyyətinin diqqətindən də yayınmayıb. Diqqətdən yayınmayan ən incə məqam məhz həmin mərasimdə Rəcəb Tayyib Ərdoğanın cənab Prezident İlham Əliyevə və xanımına böyük diqqət ayırdığı sayılır və bəllidir ki, bu heç də təsadüfi deyil.**



Ərdoğanın çıxış edəcəyi salonda Azərbaycan Prezidenti ilə səmimi görüşü də sözsüz ki, diqqət mərkəzində olub. İndi bütün dünya liderləri məhz iki qardaş ölkə liderinin dostluq və qardaşlıq münasibətini maraqla izləyir. Əvvəla ona görə ki, Türkiyə-Azərbaycan tandeminin nə kimi güc, qüdrət olduğu hamı tərəfindən qəbul edilir. Digər tərəfdən hər kəs çox yaxşı bilir ki, Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətlə irəliləyir və bu irəliləyiş daha yüksək nəticələr vəd edir. Eyni zamanda hər kəs yaxşı başa düşür ki, cənab Ərdoğanın yenidən prezident seçilməsi ilə proseslər yeni inkişaf mərhələsinə qədəm qoyur və bu da iki ölkə arasındakı münasibətlərin daha da dərinləşməsinə zərrə qədər maneə qalmır.



Bütün dünya ictimaiyyəti artıq fərqindədir ki, bölgədə güc nisbəti dəyişib və Azərbaycanla Türkiyə iki qardaş ölkə olmaqla, həm bölgədə, həm də bütövlükdə dünya miqyasında söz sahibinə çevrilib. Dünyada geosiyasi vəziyyətin mürəkkəb bir dövründə bir millət iki dövlət, yəni Türkiyə ilə Azərbaycan sülhə, əminamanlığa, sabitliyə töhvələr verməkdədirlər. Məhz elə bu fonda da cənab Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etmək üçün Azərbaycan Prezidentinin Türkiyəyə səfəri xüsusi önəm daşıyır, çünki bu səfər münasibətlərin daha da yaxşılaşdırılmasında əvəzsizdir. Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi göz önündədir. Bunu təkzib etmək mümkün də deyil. Əksinə, iki qardaş ölkə arasındakı münasibətlərin daha da dərinləşməsi, yaxşılaşması hər iki ölkəni özünə düşmən bəlləyən qüvvələrin yuxularının ərşə çəkilməsi üçün yetərlidir.

Əlbəttə ki, iki qardaş ölkənin günü-gündən yaxınlaşması digərlərində paxıllıq hissinin ortaya çıxmasına da səbəb olub. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın da bu məclisdə iştirakı deyilənləri təsdiq edir və vəziyyətin real görüntüsünü yaradır. Görünən odur ki, erməni baş nazir özünü yaxşı göstərməkdən də əlavə, hansısa formada iki qardaş ölkənin birliyinə həm qibtə edir, həm də özünü araya salmağa şalışır. Tarix boyu ən güclü dövlətlərin buyruq qulu olmağı, vassalığı qəbul edən bir ölkənin indi Türkiyəyə yaltaqlanması həm başadüşüləndir, həm də zərrə qədər təəccüb doğurmur. Bu gün dünyada söz sahibinə çevrilən Türkiyəyə özünü sırımaq istəyən Ermənistanı da, bu ölkənin baş nazirini də elə dünya ictimaiyyəti bu baxımdan yaxşı başa düşür, çünki yaltaqlıq "ənənələrinə" hər kəs bələddir.

Bəlkə də ermənipərəst qüvvələrin də imkanı olsaydı həm onların xatirinə, həm də özləri üçün bu mərasimdə iştirak edərdilər. Çünki dünyanın artıq dəyişən geosiyasi mənzərəsində ən vacib oyunçulardan olan Türkiyənin yanında qərarlaşmaq çoxlarının arzusudur. Məsələ burasındadır ki, onlar buna nail ola bilmədiklərinə görə heç də özləri ni məqbul durumda görmürlər. Fəqət Azərbaycanı bu mərasimdə ən yaxın yerdə görmək başlarına daş olub düşən ən ümdə səbəblərdəndir. Bu məqamı Azərbaycan Prezidenti çox yaxşı bilir və şübhəsiz ki, həmin mərasimdə onun iştirakı ilə düşmənlərin gözünə nə qədər çox sayda şiş batdığı da diqqətdən yayınmayıb. Məhz Türkiyə kimi bir qlobal güc dövlətinin müttəfiqi, həmin ölkə Prezidentinin ən yaxın dostu, qardaşı olmağın nə demək olduğu mesajı verilir. Həmin mərasimdə erməni baş nazirin iki qardaş ölkə arasındakı səmimi, yaxın münasibətləri həsədlə izləməsi görüntülərindən sonra şərhə ehtiyac qalmır.

Xatırladaq ki, bir neçə gün əvvəl Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasiminə hövlnak şəkildə qatılan Nikol Paşinyan və hakimiyyət komandası böyük həvəslə onun seçkidə məğlub olmasını arzulayırdı və gözləyirdi də. Bunu Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan yazılardan görmək heç də çətin deyildi. Bir müddət əvvəl cənab Ərdoğanın seçkidə məğlubiyyətini proqnozlaşdıran erməni mediası bundan böyük dividentlər əldə edəcəyi həvəsini də gizlətmirdi. Gizlətməyin də faydası yoxdur, çünki ilk növbədə Azərbaycanı düşmən bəlləyən ermənilər üçün iki qardaş ölkə arasındakı müttəfiqliyin və məhz qardaşlıq münasibətlərinin onlara nə boyda əzab verdiyi göz önündədir. Biz bunu 44 günlük müharibədən əvvəlki danışıqlar prosesində də, Azərbaycanın mükəmməl qələbəsi Zəfəri ilə başa çatan həmin müharibə dönəmində də, post-müharibə dönəmində də gördük. Gördük ki, Azərbaycana hər zaman qardaşcasına siyasi və mənəvi dəstək verən Türkiyə ilə müttəfiqliyimiz ermənilərin yuxularını ərşə çəkir.

Azərbaycan Prezidentinin cənab Ərdoğanın andiçmə mərasimində iştirak etmək üçün Türkiyə səfəri fonunda incə məqamlar olduqca çoxdur və sadalamaqla bitən də deyil. Bu məqamların bir neçəsi daha çox diqqəti cəlb edir. Məsələn, Fransa kimi bir ermənipərəst dövlətin hakimiyyətini də, prezidentini də bu səfər maraqlandırmaya bilməz. Çox güman ki, Azərbaycan əleyhinə hər zaman qərəzli münasibət göstərən, ədalətsiz yanaşma sərgiləyən bir Avropa ölkəsi hakimiyyəti iki qardaş ölkə arasındakı münasibətlərin yaxınlığını ürək ağrısı ilə izləyir. Ona görə ürək ağrısı ilə izləyir ki, bu iki qardaş ölkənin bir-birini dəstəkləməsi onların bütün ermənipərəst planlarını alt-üst edir. Artıq Makron da başa düşür ki, Türkiyə öz doğru seçimini etməklə türk dünyası üçün yeni bir era, daha sürətli inkişaf, çiçəklənmə, tərəqqi dövrünün davamına zəmin yaradılıb və bu fonda türk birliyinin güclənməsi onun planları, niyyəti üçün heç də arzuolunan deyil. Ermənilərin fransız bacıları artıq Türkiyə-Azərbaycan tandeminin hansı gücə sahib olduğunun fərqindədirlər.

Rusiya da öz növbəsində prosesi yaxından izləyir deməyə əsasımız var. Onsuz da Qərbin təzyiqləri altında olan bir ölkə Türkiyədən başqa sığınacaq və münasibət quracaq məkan görmür. Doğrudur, ruslar heç də türklərin güclənməsini, bu dövlətin başında güclü bir liderin olmasını istəməzdilər, amma qeyd olunduğu kimi, dünyada çox gərgin bir geosiyasi vəziyyət fonunda başqa çarə görə bilmirlər və vəziyyət onlara hələ ki, sərf edir desək, yanılmarıq. Məsələ burasındadır ki, uzun illər Sovet ölkəsinin hakimiyyəti altında gördükləri Azərbaycanı indi ruslar qardaş Türkiyə dövlətinin yanında görməkdən çox güman ki, bərk qıcıqlanırlar. Şübhəsiz ki, bu gün meydanda tək qalan, marginallaşan Ermənistana istənilən anda təzyiqlər edə bildiyinə zərrə qədər şübhəsi olmayan ruslar Azərbaycan barədə bu barədə düşünməyi artıq mənasız hesab edirlər. Çünki bilirlər ki, Türkiyə Azərbaycanın sevincini sevinci, kədərini kədəri kimi qəbul edir və rusların Azərbaycanda at oynatmalarına, istədikləri təzyiqləri etmələrinə birinci növbədə məhz Türkiyə qarşı çıxar və bu da onlara çox baha başa gələr.

Qərb özü də iki gözünü dörd edib və çoxdandır ki, Türkiyəyə zilləyib. Heç zaman öz oyunlarına alət edə bilmədikləri Türkiyədə son günlərdə bir daha demokratiyanın qələbə çalması, prezidenti olaraq ən güclü liderin seçilməsi sözsüz ki, Qərb üçün arzuolunan deyildi. Təbii ki, Qərb belə bir seçimin əksini arzulayırdı. Nəinki arzulayırdı, eyni zamanda Kılıcdaroğlu kimi bir layihəsini də ortaya atmışdı ki, Türkiyədə və bütün dünyada güclü lider olaraq tanınan cənab Ərdoğanın seçilməsinə mane olsun. Sözsüz ki, son gücünü sərf etmələrinə baxmayaraq buna mane ola, Türkiyə seçicisinin iradəsini qıra bilmədilər. Bəli, türklər doğru seçim etdilər və əsl layiqli namizəd seçildi. Məhz bu seçimin ardınca Azərbaycan Prezidentinin məhz andiçmə mərasimində iştirak etmək üçün Türkiyəyə səfər etməsi, orada çox mehriban, dostcasına qarşılanması Qərb üçün də arzuolunan sayıla bilməz. Bəlkə də bu vaxta qədər Azərbaycanda hansısa təxribata ümid edən, Soros kimi bir şər iblisinin çirkin oyunlarını planlaşdıran Qərb artıq bunun mümkünsüzlüyünün fərqindədir. Həm də fərqindədir ki, Türkiyə ilə müttəfiqliyi, qardaşlıq münasibətləri fonunda hansısa qarışıqlıq yaratmaq istəyi sadəcə bir xülya ola bilər.

Bir sözlə, Azərbaycan Prezidentinin Türkiyəyə son səfəri müxtəlif istiqamətlərdə təhlil edilə bilər və istənilən halda bu səfərin əhəmiyyətli olduğu öz təsdiqini tapmalıdır. Çünki həmin səfər çərçivəsində bəyan olunan mesajlar çox incə məqamlardan xəbər verir. İncə məqamlar olduqca çoxdur, amma burada ən diqqətçəkən məhz Türkiyə-Azərbaycan tandemi, ən yaxın dostluq və qardaşlıq münasibətlərinə daha geniş spektrda yol açılması, iki qardaş ölkə liderinin istənilən məqamda, istər sıxıntılı, istərsə də sevincli məqamlarda bir yerdə olması, bir-birinin yanında olmasıdır. Bu isə o deməkdir ki, münasibətlər bundan sonra daha da yaxınlaşacaq və bu qardaşlıq ənənəsi əbədi olaraq davam edəcək, hansıki ölkələrinizin gücünün, qüdrətinin artması deməkdir.

***İnam Hacıyev***

# Özəl pensiya fondunun üstünlükləri və riskləri nədən ibarətdir?



İQTİSADÇI ŞƏRH ETDİ

"Azərbaycanda özəl pensiya fondlarının yaradılması təqaüd sistemi üçün müsbət nəticələr doğura bilər. Əgər beynəlxalq təcrübəyə müraciət etsək, həm Avropa, həm də MDB ölkələrində özəl pensiya fondlarının fəaliyyəti mövcuddur. Bu baxımdan ölkəmizdə də bu fondların fəaliyyətə başlaması müsbət bir addım olar. Özəl pensiya fondlarının bir neçə təsiri var. Bunlardan biri sözsüz ki, maliyyə sistemində rəqabətin yaranmasıdır. Çünki hazırda bizdə yalnız Dövlət Sosial Müdafiə Fondu mövcuddur. Bu, büdcənin yükünü artırır. Yəni, yığımlar yalnız bir fonda gedir və artımlar dövlət büdcəsindən maliyyələşir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eyyub Kərimli deyib. Onun sözlərinə görə, fondun nəticələrindən biri də hər bir insan sərbəst şəkildə öz pensiya kapitalını istədiyi fonda yönəldə bilər: Bu baxımdan əlbəttə ki, gələcəkdə də onun pensiyasının üzərinə əlavə dividentlərin gəlmək ehtimalı var. Bu da onunla bağlıdır ki, özəl pensiya fondlarının orada yığılan vəsaiti müəyyən investisiya lahiyələrində, maliyyə əməliyyatlarında istifadə etmək imkanları olacaq".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, başqa bir məsələ isə pensiyaçılar tez rəhmətə getsə, həmin vəsaitin özəl pensiya fondları tərəfindən geri qaytarılmasıdır: "Özəl pensiya fondunun digər bir üstünlüyü isə odur ki, hər kəs öz yığımı qədər pensiya alacaq. Yəni, indikindən fərqli olaraq fonda ödədiyi vəsait gələcəkdə müəyyən aylara bölünəcək. Bu, hazırda qanunvericiliyə əsasən 144 aydır.

Çatışmazlıqlara gəldikdə isə qeyd edə bilərəm ki, bizim ölkədə bu cür fondların ənənəsi yoxdur. Məsələn buna misal olaraq bankları göstərə bilərik ki, daha tez bağlanır. Hesab edirəm ki, bununla bağlı bu fondların fəaliyyətində ciddi dövlət nəzarəti və dövlət sığortası olmalıdır. Belə ki həm pensiya fondlarının fəaliyyəti, həm də insanların inamını qazanmaq üçün fondlara ciddi nəzarət olunmalıdır. Əks təqdirdə bu fondların fəaliyyətinin həyata keçirilməsi sual altında ola bilər".

**Ləman Əlizadə**



# Milli Məclis ötən il üzrə dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsini ikinci oxunuşda qəbul edib

"Büdcə sistemi haqqında" Qanunun 20.2-1-ci maddəsinə əsasən hazırlanan "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda təsdiqlənib. Qanun layihəsinə əsasən, 2022-ci il dövlət büdcəsinin icrası üzrə gəlirlər 30 milyard 679 milyon 646,4 min manat, xərclər isə 32 milyard 64 milyon 568 min manat məbləğində olmaqla təsdiq edilir. Bununla bağlı məsələ Milli Məclisin iyunun 6-da keçirilən növbədənkənar iclasının gündəliyində ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Sənədə əsasən 2022-ci il dövlət büdcəsinin gəlirləri 29 milyard 197,8 milyon manat proqnoza qarşı 30 milyard 679,6 milyon manat təşkil edib. Beləliklə, gəlirlər proqnozdan 1 milyard 481 milyon manat artıq icra olunub. Bu da 2021-ci illə müqayisədə 4 milyard 283,4 milyon manat (16,2 faiz) çoxdur. 2022-ci il dövlət büdcəsinin xərcləri 32 milyard 64,6 milyon manat təşkil edib ki, bu da təsdiq olunmuş proqnoza qarşı 0,7 faiz azdır. Müvafiq olaraq dövlət büdcəsinin kəsiri 1 milyard 385 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 55,4 faiz az olub.

2022-ci ildə ilk dəfə olaraq Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) həcmi 100 milyard manatı ötərək, 133,8 milyard manat təşkil edib. Büdcə xərcləri 99,3 faiz həcmində icra olunub və dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 22,9 faiz təşkil edib.

Qanun layihəsinə görə 2023-cü il yanvarın 1-nə vahid xəzinə hesabının sərbəst qalığı 860 milyon 367 min 727 manat müəyyənləşdirilir. 2022-ci il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilir. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

# Yalançı dost

*PAMFLET*

**(Real həyat hekayəsi)**

90-cı illərin ortaları. Ağır sosial-iqtisadi vəziyyət. Tələbəliyi yeni başa vurmuşam, amma iş tapmaqdan söhbət belə gedə bilməz. Belə bir möcüzə nadir rast gələnən şeydir. Balaca bir daxmada kirayə qalıram. Maddi vəziyyətim ağırdır. Bəzi vaxtlar müvəqqəti işlər tapıb işləyirəm, amma bəzən iş tapmaq olmurdu.

Bir köhnə dostum var, tikintidə fəhlə işləyirdi. Hərdən şirniyyat zad alıb gəlirdi yanıma, bir kısmat çay içib söhbətləşirdik, çıxıb gedirdi. O gedəndən sonra müxtəlif günlərdə evin müxtəlif yerlərindən pul çıxırdı. Döşəyin altından, şkafın içindən, süfrənin altından və s. Heç cür boynuna qoymaq olmurdu, deyirdi "tova mənim xəbərim yoxdur, məndə pul nəzer, özümü güclə girləyirəm". Yəni, yaman yalançı adam idi. Etdiyi cinayəti boynuna qoymaq da olmurdu, elə peşəkar işləyirdi ki, sübut da etmək olmurdu.

Dəfələrlə bu gələndə bundan gözümü ayırmırdım ki, görüm cəmi 1 otaqdan ibarət evdə pulu hara və necə soxuşduracaq, cinayət başında yaxalayım rəzil eləyim, yenə də xeyri olmurdu, elə bil fokusnikdi, necə edirdisə, sonra yenə ordan burdan pul çıxırdı. Bir neçə aylar belə davam elədi. Axırda bunu aldatdım, dedim ki, qaqa, kirayəni təhvil verdim, bir müddət xalagildə qalacam. Görüşmək istəyəndə bazar günləri axşam Nərimanov parkının sonundakı çayxanada olacam, gələsən bir çay içərik.

Bir gün bir uşaq qapını döydü, açdım, əlində bir miqdar pul uzadıb dedi ki, bunu bir əmi sizə göndərdi. Necə əmi idi- soruşdum, başladı təsvir etməyə. Elə təsvir elədi ki, bu adamın tam əksinə. Deməli, bu yalançı dostum, usağı öyrədibmiş ki, "deyərsən, arıq, uzun oğlan idi". Pəncərədən uşağı güddüm, getdi dükana özünə marojna aldı. Bu yalançı dostum, indiki psixoloqların qulağından iraq, uşağın mükafatını, yəni, rüşvətini də veribmiş ayrıca.

Sonra bir möcüzə baş verdi. Uzun axtarışlardan sonra bir fəhləlik işi tapdım. İlk maaşımı alanda paypüş alıb getdim bunlara. Gördü başımı girləyə bilirəm, rahat oldu.

Günlər dolandı, aylar keçdi. Bir şirkətdə işə düzəlmişdim, yaxşı qazancım var idi. Bir gün eşitdim ki, bu 2 aydı işdən çıxıb. Bir az paypuş alıb getdim bunlara. Elə tülkü idi ki, o saat bildi niyə gəlmişəm. 3 saat onlarda oldum, bir saniyə yanımı buraxmadı ki, harasa bir az pul dürtəm. Nərdi bağlayanda istədim özüm aparıb yerinə qoyam və yolda xəlvətcə arasına bir az pul dürtəm. O saat nərdi əlimdən aldı ki, ala sən otur, çayını iç ey, özüm qoyaram yerinə. Tülkü ki, tülkü Gördüm variant yoxdur, çıxanda bir az pulu cibinə basmaq istədim ki, qaqa xərclik edərsən. Dava saldı ki, yox ey mümkün deyil, pulum zadım var. Nə başınızı ağrıdım, cəhdlərim nəticə vermədi, kor-peşman qayıtdım evə.



Arada bir görüşüb çay içirdik, dənizə çimməyə gedirdik. İmkan vermirdi ki, bir-iki manat da mən xərcləyim. Bir dəfə dedim, a kişi, bura bax, mənim maaşım səndən çoxdur, nə özünə əl qatmısan. Dedi, qaqa, mən yaşda səndən böyüyəm, böyük olan yerdə kiçik kimdi ki, lotuluq eləyib pul xərcləyə. Yəni, buna heç bir variant keçmirdi ey. Məntiqli oldu-olmadı, bir bəhanə gətirib öz bildiyini edirdi.

Bir dəfə Elmlər Akademiyasının qarşısında skamyada oturub hava alırdıq, oynayan uşaqlara baxırdıq. O vaxt hələ smartfonlar yox idi deyə insanlar zombiləşməmişdi, söhbət zad edə bilirdik. Bunun təsadüfən ordan keçən bir dostu bizi gördü, əl çəkmədi ki, gedək bir kısmat çörək yeyək. Getdik kafedə oturduq, hərəyə 2 şiş kabab, salat filan, bir butulka da araq. Yedik-içdik. Duranda dostumun dostu ofisiantı hesab üçün çağırdı, o da dedi ki, sizin hesab çatıb də. Necə çatıb? Dostumu göstərib dedi ki, bu qardaş verib. Bu adam yerindən tərpənməmişdi, iki daşın bir arasında necə hesabı verib biləmmədik. Fokusnikdi ey əməlli baslı...

O dostu gedəndən sonra mənə dedi ki, bu adamın böyük ailəsi var, özü də quru maaşa baxır, məni çox istəyir deyə bir qonaqlıq vermək istəyirdi, amma o hesabı o versə, neçə gün çətinlik çəkəcəkdi. Dedim, bəs sənin də ailən var, sənə çətinlik olmurmu? Dedi ki, mən kavadrata işləyirəm, əlavə pul lazım olanda, bir neçə saat da artıq işləyib o pulu qazana bilirəm. Bu isə standart maaş alır.

Beləcə günlər dolanır, aylar keçirdi. Günlərin bir günü, eşitdim ki, bu xəstələnib, "Respublikanski" xəstəxanasındadır. Getdim, həkimlə görüşdüm, dedi ki, bu adamın mədəbağırsaq sistemi pozulub, mədədə yara var, vaxtında yemək yeməyib, özünə baxmayıb qətiyyən. Həkimin yanından çıxanda, yoldaşı məni gördü, soruşdum bu nə işdi belə, dedi ki, neçə vaxtdı ağrıyırdı, neçə dəfə dedim həkimə gedək, dedi ki, pul yoxdur, sonra baxarıq. İndi həkim uzun bir resept yazıb, pul yoxdu almağa. Gedirəm atama zəng etməyə, bir az pul göndərsin bizə. Dedim, bunu bilsə, sənin qanın getdi, mən alacam resepti, amma xahiş edirəm, özü bilməsin. Dedi ki, yox, sonra bilsə, məni öldürər. Dedim nə biləcək ki, dərmanlar neçəyə alınıb, deyərsən beş-on manat elədi, öz pulumuzla aldım, həkimə də başa sal, desin ki, ucuz dərmanlardır. Birtəhər razı saldım. Üstümdə o qədər pul yox idi, tez taksi tapıb evə qaçdım, pul götürdüm və bütün dərmanları alıb gətirdim yoldaşına verdim, "mən burda olmamışam, xəbərim yoxdur ha", deyib özü ilə görüşməmiş əkildim.

Elə də çox pul deyildi, yarım aylıq maaşım qədər idi. Axır ki, borcumun 100-də 1-ni qaytara bilmişdim deyə sevinirdim. Hardasa 20 gün sonra eşitdim ki, 1 kurs müalicə olunub, artıq işə çıxır. Axşam getdim işə yerinə, çıxanda gedək çay içməyə. Xeyli söhbətləşdik. Dedim, qaqa, xəbərim olmayıb, xəstələnmişsən, nə olmuşdu ki? Dedi ki, əşşi boş şeydi, soyuqlamışdım bir az. Əmin oldum ki, məsələdən şübhələnməyib, yəni, bu dəfə bu fokusnikə variant keçirə bilmişəm.

Bir neçə ay keçdi. Bir gün gəldi ki, "qaqa, bir nəfərə borcum var, adı Farizdir, indi Qusarda iş götürüb işləyir , 1 həftəyə kimi Bakıya qayıdacaq. Bu pulu saxla, adresini verməşəm, özü gəlib səndən götürəcək. Mən ailəmi də götürüb gedirəm Moskvaya, qaynımın orda suvenir mağazası var, onu işlədəcəm, yaxşı qazanclı işdi".

Pulu götürüb qoydum evə. İndiki pulla götürsək, 1000 manat civarında pul idi. Getdik "Çinar" restoranına, son dəfə yeyib-içməyə. Axıra yaxın tualet bəhanəsi ilə çıxıb ofisianta hesabı artıqlaması ilə ödədim ki, sonda deyərsən ki, bir nəfər yekəqarın kişi sizin hesabı bağlayıb getdi. Duranda ofisiant əzbərlədiyi sözləri buna dedi. Bu da özü yalançılıq üzrə peşəkar adam, inanarmı bu nağıla, bildi ki, bayaq mən, əslində, tualetə getməmişəmmiş. Amma sübut edə bimədi, dedim mənlik deyil, beynimi xarab eləmə. Nə isə bunu birtəhər yola verdim getdi. Düşünürdüm ki, buna artıq 2-ci qolu vururam, mıqq eləyə bilmir. Amma deyir, sən saydığını say, gör bu fokusnik nə sayır

Nə isə, birisigün bu yalançını dəmiryol vağzalından Bakı-Moskva qatarı ilə yola saldım. Neçə gün keçdi, neçə həftə keçdi, bu Fariz gəlib çıxmadı. Fikirləşirdim ki, pulu itirib eləyəcəm zibilə düşəcəm, bu səy kopolu niyə gəlib pulunu götürmür ki? O vaxt mobil telefon, internet filan yox, bununla da əlaqə saxlaya bilmirəm ki, görüm nə məsələdi. Yarım ilə yaxın keçdi. Bir gün oturub fikirləşirdim ki, bu pulu neyləyim, birdən mənə çatdı ki, ey dili qafil, sən bunu tanımırsanmı, heç kim də gəlib eləməyəcək, "kakoy ni bud" fariz-mariz yoxdur, bu yalançı fokusnik pulu sənə bu adla sırıyıb gedib.

Keçən 27 ildə görüşməmişik. Bu müddətdə cəmi 1 dəfə- 2002-ci ilin yayında Bakıya gəlibmiş bir neçə günlük, həmin günlərdə də tərs kimi mən rayonda olmuşam. Ortaq dostlardan salam göndərib. Bir dənə də "Vostok" saatı hədiyyə qoyub. Çox mükəmməl və bahalı saat idi. Cəmi 1 il istifadə elədim. Bir də ayıldım ki, yoxdur, evə gələn qonaqlardan kimsə kəmali-ədəblə çırpışdırıb. O dostumdan son yadigar idi. Eşitdiyimə görə, hazırda planetin o başında- Xabarovskidə yaşayır. Bəlkə də, bu yazını nə vaxtsa oxudu. Qoy bilsin ki, mən hər şeyi bilirəm. Bilsin ki, yalançılıq yaxşı xüsusiyyət deyil. Fokusnik olmursan, kim olursan ol. Dost dostu aldatmaz. Ayıb olsun

Köhnə dostluğumuzun xatirinə adını çəkib biabır eləmirəm. Adını yalançı kimi tarixə yazıram

***Elçin Bayramlı***
***Bakı / 2023***

# Dəmir yumruq, güclü iradə, dəqiq hədəf - Qarabağa Böyük quruculuqla

## PREZİDENT İLHAM ƏLİYEV: "Biz bu miqyasda dağıntıdan inkişafa doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik"

**Bəli, 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən iki il keçməsinə baxmayaraq, bu qısa zaman kəsiyində ölkəmizin həyatında yeni dövr başlayıb. Dövlət başçımız çıxışlarında bildirib ki, bu miqyasda dağıntıdan inkişafa doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik. Bəli, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesi sürətlə, uğurla dava etməkdədir. Ən əsası isə, xalq görülən işlərin şahidi olur, Qalib Liderimizin gördüyü işləri bəyənir, dəstəkləyir.**

Bəli, bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq. Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır: "On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir".

Bəli, Qalib, Qurucu liderimiz, Prezident İlham Əliyevcənablarının birbaşa rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurumuz başdan qurulur, gün keçdikcə tarixi diyarlarımıx cənnətə çevrilir.

### ERMƏNİSTANIN İŞĞAL DÖVRÜNDƏ EKOLOGİYAYA VURDUĞU ZƏRƏR VƏHŞİLİK VƏ TALANÇILIQDIR"

Dövlət başçısı çıxışı zamanı vurğulayıb ki, Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurub. Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilib. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələr kütləvi surətdə qırılıb. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. "Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub - Bəsitçay təbiət qoruğu. O Bəsitçay təbiət qoruğunun böyük hissəsi məhv edilib və mən Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini görmüşəm və eyni zamanda, yandırılmış ağacları da görmüşəm. Eyni çirkin əməlləri onlar Kəlbəcər və Laçın rayonlarında müharibədən dərhal sonra etmişdilər. Onlara möhlət verilmişdi o ərazilərdən çıxmaq üçün, iyirmi gün vaxt verilmişdi. O günləri onlar yenə də bəd əməllər üçün istifadə etmişdilər", - deyə Prezident əlavə edib.

"Azad edilmiş hər bir rayonda kəndlərin bərpası ilə bağlı işlərə artıq start verilib. Biz kəndləri də planlı şəkildə bərpa edəcəyik", deyən Prezident İlham Əliyev bu prosesin mərhələli və planlı şəkildə aparılmalı olduğunu qeyd edərək bildirib ki, hər bir yeni yaradılacaq, bərpa ediləcək kəndin baş planı olmalıdır və baş planlar hazırlanır: "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq".




### BÖYÜK DÖVLƏTLƏRİN BİR NEÇƏ İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİKLƏRİ İŞLƏRİ AZƏRBAYCAN CƏMİ 2 İLDƏ REALLAŞDIRIB

Bəli, bu gün Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək görərik ki, bəlkə də, böyük dövlətlərin bir neçə il ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 2 ildə reallaşdırıb. Hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elekttik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturların yaradılması dünyanın diqqətini cəlb edir. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Prezident İlham Əliyev cənablarının noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı da bir daha deyilənlərin təsdiqidir. Sərəncamda göstərilir ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, proqramın prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Sənədin hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

Sənəddə, ilk növbədə, bütövlükdə Şərqi Zəngəzur və Qarabağın təhlükəsiz bir zonaya çevrilməsi hədəflənir ki, bu, Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır: "Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz - onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək".

Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin və bütün Azərbaycan xalqının inamını etibarını qazanaraq son 20 illik prezidentlik fəaliyyəti müddətində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur. Prezident İlham Əliyev həmişə çıxışlarında "mənim sözüm imzam qədər qüvvətlidir",-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.

### BU BÖLGƏ NƏİNKİ AZƏRBAYCAN ÜÇÜN, DÜNYA ÜÇÜN NÜMUNƏVİ BÖLGƏ OLACAQ

Bəli, qələbəmizdən iki il keçməsinə baxmayaraq, dövlət başçımızın dediyi kimi: "Bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma, eyni zamanda, tələskənliyə yol vermirik".

Bir sözlə, bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz",-deyən Azərbaycan Prezidenti İlham Əliyev hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz. Bu gün - 30 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub.

Bütün bunlara nail omaq isə daim xalqın son ümidi olan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu və ölkənin hərtərəfli inkişaf siyasətinin uğurla davam etdirilməsi 2020-ci ildə 44 günlük Vətən müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazılan qələbənin əldə edilməsində başlıca rol oynadı.

Xalqa müraciətində Prezident İlham Əliyev Şuşadan xalqa müraciətində bildirmişdir Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi: "Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər Xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Bəli, bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində genişmiqyaslı işlər görülür. Dövlətimizin başçısı İlham Əliyev ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Qarabağın tacı, bütün türk dünyasının mədəniyyət paytaxtı Şuşadan müraciətində də xüsusi qeyd etdi ki, bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır: "Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik".

Bəli, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı -"Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir.

"Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz", deyən Ali Baş Komandanımızın "Dəmir yumruq" siyasəti altında Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə işğaldan azad edilən torpaqlarımız zamanla abadlaşacaq, cənnət məkana çevriləcək. Dövlət başçımızın dediyi kimi: "Çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır!".

**_RƏFİQƏ KAMALQIZI_**

# Paşinyanın Ankara səfəri

*Yaxud baş nazirin Türkiyə səfərinə Ermənistandan baxış və reallıqlar*

**Ermənistanın baş naziri Nikol Paşinyan Türkiyənin yeni seçilmiş Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimi ilə əlaqədar səfər etdiyi Türkiyədən artıq İrəvana qayıdıb. Qısamüddətli səfər bir sıra dövlətlərin erməni diasporalarının İrəvana Qarabağla bağlı mövqelərinə yenidən baxmaq çağırışı fonunda baş tutub. Paşinyanın səfəri Ermənistanın özündə də qarışıq reaksiyaya səbəb olub.**

Ankarada Nikol Paşinyan Rəcəb Tayyib Ərdoğan, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevlə qısa söhbət edib. Türkiyə mətbuatının yazdığına görə, Paşinyanla İlham Əliyev Brüsseldə gözlənilən görüşün bəzi detallarını müzakirə ediblər. Ərdoğanın andiçmə mərasiminə gələn möhtərəm qonaqları sadalayarkən Paşinyanın adını çəkməməsi Ermənistan cəmiyyətinin baş nazirin Ankaraya səfərini Ermənistanın və xalqının növbəti rüsvayçılığı adlandıranlar bununla ictimai qınağı, təzyiqi artırmaq, ortalığı qarışdırmaq, qızışdırmaq niyyətlərini gizlətmirlər. Bu insanlar daha çox Türkiyənin müttəfiqi Azərbaycana verdiyi dəstək nəticəsində baş vermiş 44 günlük müharibədə məğlubiyyətdən sonra bu cür hərəkətləri qəbuledilməz hesab edirlər. Onların fikrincə, Ərdoğanın sonrakı sərt bəyanatları, Türkiyənin Ermənistanla güclü mövqedən danışmağa meylli olması münasibətlərin yaxşılaşmasına heç nə vermir və Türkiyə Prezidentini seçkilərdəki qələbəsi münasibətilə qiyabi təbrik etmək və andiçmə mərasimində ölkəsindəki çətin daxili siyasi vəziyyətə görə iştirak etməməsini izah etmək kifayət idi.

Belə ki, "Alternativ layihələr" qrupunun üzvü, politoloq Vahe Hovhannisyan sosial şəbəkədəki səhifəsində yazıb: "Təhqiri qəbul etməyən cəmiyyətlər adətən çox ağır nəticələr əldə edirlər". Ovannisyanın sözlərinə görə, vəziyyət orta əsr ənənələrini xatırladır, o zaman ki, qalib öz xalqına uduzan tərəfin əsir liderini nümayiş etdirərək bununla da hərbi uğurlarını təsdiq edirdi.

Politoloq Armen Xanbabyan isə əks fikirdədir. Onun sözlərinə görə, Türkiyə Ermənistanla həmişə güclü mövqedən danışacaq, çünki o, daha güclü və sayca çoxdur. Ankara üçün İrəvanla münasibətlərin normallaşması arzuolunandır, lakin o qədər də əhəmiyyətli amil deyil. "Ermənistan hakimiyyətinin əleyhdarları Paşinyanın səfərindən kapitulyasiya siyasətini davam etdirməkdə ittiham etmək üçün bəhanə kimi istifadə ediblər. Onların fikrincə, İrəvan belə addımlar atmamalıdır. Paşinyanın əleyhdarları üçün hakimiyyətin istənilən hərəkəti sərt və çox vaxt əsassız tənqid üçün fürsət olur", - Armen Xanbabyan bildirib. Onun sözlərinə görə, bu dəfə Paşinyanın rəqibləri onun son 30 ildə Türkiyə paytaxtına səfər edən ilk erməni lideri olmadığını xatırlamamağa üstünlük verirlər.

## Türkiyəyə səfər ənənəsi...

Hələ 1993-cü ildə, birinci Qarabağ müharibəsinin qızğın vaxtında o vaxtkı prezident Levon Ter-Petrosyan mərhum həmkarı Turqut Özalın dəfn mərasimini onun iştirakı ilə təşkil etməyi mümkün görüb. Və heç kim bunun xəyanət olduğunu düşünmürdü. Eynilə 2009-cu ildə üçüncü prezident Serj Sarkisyanın Türkiyəyə səfəri kimi. Sonra xatırlayırıq ki, iki ölkə liderləri münasibətlərin ikitərəfli normallaşması prosesinin başlanmasına yönəlmiş futbol diplomatiyası adlanan sənəd çərçivəsində qarşılıqlı səfərlər ediblər. Düzdür, ilk növbədə Bakının Türkiyənin hərəkətlərinə kəskin mane olması səbəbindən Sürixdə imzalanan protokollar heç vaxt ratifikasiya olunmadı.



Rəsmi mənbələr Paşinyanın səfərini "işgüzar səfər" adlandıraraq, onun Ərdoğanla münasibətləri normallaşdırmaq üçün başqa bir cəhdi müzakirə edəcəyini və bunun heç bir nəticə verməyəcəyini bildiriblər. Səfər zamanı baş naziri Ermənistanın ikitərəfli dialoq üzrə xüsusi nümayəndəsi, Parlamentin vitse-spikeri Ruben Rubinyanın müşayiət etməsi və hava limanında onları bu dialoqda Türkiyə nümayəndəsi səfir Serdar Kılıçın qarşılaması da buna işarədir. Paşinyanın Türkiyənin keçmiş xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşdüyü məlum olub. Ermənistan lideri ilə Ərdoğanın söhbəti barədə də məlumat var, lakin hələlik təfərrüatlar açıqlanmayıb.

Bununla yanaşı, Xanbabyan vurğulayıb ki, Paşinyanın səfərinin İrəvanla Ankara arasında münasibətlərin normallaşmasında ciddi rol oynayacağına inanmağa dəyməz. "Ermənistan-Türkiyə münasibətlərinin səviyyəsi bundan sonra da Ermənistan-Azərbaycan dialoqunun gedişindən asılı olacaq, burada ciddi irəliləyişə ümid etmək hələ mümkün deyil. Lakin ola bilsin ki, üçüncü ölkə vətəndaşları üçün Ermənistan-Türkiyə sərhədinin açılması ilə bağlı sazişi həyata keçirmək mümkün olsun. Bu, Rusiya pasportuna malik ermənilərin üçüncü ölkələrdən yan keçərək Türkiyəyə daxil ola bilməsi deməkdir", - Xanbabyan vurğulayıb.

## Ermənistanla Azərbaycan arasındakı razılaşmaların arxasında nə dayanır?

İrəvan saxtakarlığa əl atmasa və mövqeyini yenidən dəyişməsə, yaxın vaxtlarda Ermənistanla sülh müqaviləsi imzalana bilər. Belə ki, bunu mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyev laçınlılarla görüşündə deyib.

"İndi Ermənistan ərazi bütövlüyümüzü tanıdığına görə, sülh müqaviləsi üçün faktiki olaraq heç bir ciddi maneə yoxdur", - deyə o izah edib.

Sülh müqaviləsi beynəlxalq şərtlərə əsaslanmalı, Naxçıvana yol açılmalı, hələ də Qarabağda qalan Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Qarabağdakı qondarma qurumun bütün üzvləri istefaya getməlidirlər və bundan sonra hansısa amnistiya ola bilər. "Hamı yaxşı bilir ki, bu gün bizim bu regionda istənilən əməliyyatı keçirmək imkanımız var", - deyən İlham Əliyev öz ordusunun nəinki Qarabağdakı, hətta Ermənistandakı ordu üzərində mühüm hərbi üstünlüyünə toxunaraq deyib. Bundan əvvəl baş nazir Nikol Paşinyan bildirib ki, erməni əhalisinin təhlükəsizliyi təmin olunarsa, Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa hazırdır. Əslində, İrəvan Qarabağda hərbi əməliyyatlar başa çatdıqdan sonra yaranmış reallığı qəbul edib. Qarabağın gələcəyi ilə bağlı Ermənistanın mövqeyində müşahidə olunan dəyişiklik çoxdan gözlənilən hadisədir.

Bu arada məlum olub ki, iyunun 12-də Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüş keçiriləcək. Bunu Ermənistan XİN sözçüsü Ani Badalyan da təsdiqləyib. Bildirib ki, Vaşinqtonda Ceyhun Bayramov və Ararat Mirzoyan arasında sülh prosesi istiqamətində danışıqlar davam etdiriləcək. İctimaiyyətə əlavə məlumat və görüşün təfərrüatları daha sonra açıqlanacaq. Bundan əvvəl isə Azərbaycan və Ermənistan liderləri arasında növbəti görüş iyulun 21-də Brüsseldə keçiriləcək.

Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası üçün hər hansı konkret xəritənin istifadəsi ilə bağlı yekun razılaşma yoxdur, baxmayaraq ki, Ermənistan üçün 1975-ci il xəritəsi məqbul həlldir. Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlamentin daimi komissiyalarının birgə iclasında dövlət büdcəsinin icrasına dair illik hesabatın ilkin müzakirəsi zamanı deputatların suallarını cavablandırarkən deyib. Qeyd edib ki, hələlik Ermənistan və Azərbaycan arasında sərhədin müəyyənləşdirilməsi üçün hər hansı konkret xəritədən istifadə edilməsinə dair yekun razılıq yoxdur. "Amma Alma-Ata Bəyannaməsinə uyğun olaraq bu işləri həyata keçirmək öhdəliyi var. Ötən il oktyabrın 6-da bu razılaşma Praqada əldə olunub, lakin xəritədə heç bir razılaşma yoxdur", - Mirzoyan bildirib.

"Söhbət həm bütün beynəlxalq ictimaiyyət, həm də Ermənistan Respublikası tərəfindən anlaşma və işi davam etdirmək istəyi olan xəritədən gedir. Biz hesab edirik ki, 1975-ci il xəritəsinə əsasən bir-birinin ərazi bütövlüyünün tanınması və bu əsasda demarkasiya işlərinə başlanması Ermənistan Respublikası üçün məqbul həll yoludur. Lakin hələlik konkret xəritə üzrə yekun razılaşma yoxdur", - XİN rəhbəri yekunlaşdırıb.

Azərbaycan XİN-dən bu açıqlamaya dərhal reaksiya verilib. Qeyd edilib ki, ilk öncə, delimitasiya prosesinin hansı əsasda aparılması ilə bağlı iddia ilə əlaqədar qeyd edək ki, həm Praqa, həm də Soçi görüşü üzrə bəyanatlara əsasən delimitasiyanın ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı tanınması əsasında həyata keçirilməsi nəzərdə tutulub. Ümumiyyətlə, bu bəyanatlarda BMT nizamnaməsinə və Alma-Ata bəyannaməsinə istinad qeyd edilən prinsiplər kontekstində verilib. Bu və digər bir görüşdə delimitasiyanın hansısa xəritə əsasında həyata keçirilməsi barədə hər hansı bir razılıq olmadığı Ermənistan tərəfinə yaxşı məlumdur.

Beynəlxalq təcrübəyə əsasən, Ermənistandan fərqli olaraq Azərbaycanın indiyə qədər bəzi qonşuları ilə həyata keçirdiyi delimitasiya prosesi xüsusi olaraq seçilmiş xəritə əsasında deyil, bütün hüquqi əhəmiyyəti olan sənədlərin təhlili və nəzərdən keçirilməsi əsasında həyata keçirilib. Bu təcrübənin Ermənistanla da tətbiq edilməsi mümkündür. Bu xüsusda, Ermənistan tərəfinin 1975-ci il xəritəsinə xüsusi istinad edilməsini təkid etməsi əvəzinə, delimitasiya işinə başlaması daha faydalı olardı. 2020-ci il Vətən müharibəsindən sonra ölkəmizin Ermənistanla sərhədlərin delimitasiya olunması təklifinə uzun müddət heç bir cavab verməyən tərəfin də məhz Ermənistan olduğu unudulmamalıdır.

30 ilə yaxın bir dövrdə Azərbaycan ərazilərini işğal altında saxlayan, Azərbaycanın 8 kəndini hələ də işğal edən, əldə edilmiş yazılı və şifahi razılıqlara baxmayaraq qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmayan, 8 kəndin Azərbaycana qaytarılmasını müxtəlif bəhanələrlə ləngidən, eləcə də hərbi təxribatlarını davam etdirən Ermənistanın Azərbaycanı Ermənistana qarşı təcavüzdə təqsirləndirməsi tamamilə əsassızdır.

Beləliklə, Azərbaycanın Ermənistanı sülhəməcburetmə əməliyyatı davam etməkdədir. Hər gün, hər görüşdə İrəvanın bir yanaşma forması üzə çıxır. Nəticə etibarilə Ermənistanın sülhə yanaşmada problemlər yaşadığı bəlli olur.

***V.VƏLİYEV***

# "Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin yenidən inteqrasiyasında qərarlıdır"

"Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi ölkəmizin siyasi, hüquqi, iqtisadi və sosial çərçivəsinə yenidən inteqrasiyasında qərarlıdır."

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı bildirib. Nazir bu xüsusda, dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyasına xələl gətirməmək və ya qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq üzrə öz öhdəliklərinə ciddi şəkildə riayət etməyin zəruriliyini vurğulayıb.

Azərbaycan hökumətinin gördüyü yorulmaz səylər nəticəsində məcburi köçkün ailələrinin birinci qrupunun artıq Azərbaycanın Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndlərinə və Azərbaycanın Laçın şəhərinə qayıtdığı barədə məlumat verən C.Bayramov bununla belə, Azərbaycan ərazilərinin mina və digər partlayıcı maddələrlə kütləvi şəkildə çirklənməsinin əsas maneə, həmçinin ciddi humanitar təhlükə olmaqda davam etdiyini diqqətə çatdırıb. Nazir qeyd edib ki, Azərbaycan-Ermənistan normallaşma prosesi çərçivəsində ikitərəfli sülh sazişi mətni üzərində danışıqlar



aparılır. Nazir son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda keçirilən danışıqların tərəflərin mövqeyini daha yaxşı anlamağa imkan yaratdığını diqqətə çatdırıb.

Ceyhun Bayramov deyib ki, Azərbaycanı ikitərəfli müzakirələrin gündəliyini formalaşdıran üç konkret istiqamət üzrə fikir ayrılıqlarını aradan qaldırmaq üçün Ermənistan tərəfdən qarşılıqlı siyasi iradə gözləyir. Bu kontekstdə, Ermənistanın Azərbaycanın suveren ərazilərində qeyri-qanuni hərbi mövcudluğunu davam etdirməsi, daxili işlərimizə ardıcıl müdaxilə, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin erməni əsilli yerli sakinləri arasında dialoqa mane olması və beynəlxalq miqyasda, o cümlədən, ATƏT çərçivəsində qarayaxma kampaniyası aparılmasının Azərbaycan Ermənistan arasında dövlətlərarası normallaşma üzrə danışıqlara əsas maneə olduğu diqqətə çatdırılıb.



# Qarabağ dünyanın sənaye mərkəzinə çevrilir

Son 20 ildə Azərbaycan inkişafına görə, dünyanı heyrətləndirən uğurlara imza atıb. Elə bir sahə, elə bir şəhər və qəsəbə, rayon yoxdur ki, orada müasir dövrün tələblərinə, texnoloji yeniliklərə cavab verən nailiyyətlər olmasın. Müsbət nəticələr Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, ölkə Prezidenti İlham Əliyevin çox böyük qətiyyətlə və əzmlə həyata keçirdiyi siyasətin bəhrəsidir. Qətiyyətli siyasətin ana xəttini isə söz yox ki, 44 günlük Vətən müharibəsi ilə torpaqlarımızın düşməndən azad edilməsini təşkil edir. Müzəffər Ordumuz Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi Azərbaycan xalqının tarixinə ən şanlı, şərəfli və qürurverici səhifəsini yazdı. Bu gün Qarabağımız rahat nəfəs alır. Hər yerdə geniş quruculuq abadlıq işləri həyata keçirilir. Bunun fonunda keçmiş qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıdırlar. Quruculuq, abadlıq, bərpa işləri ən müasir texnologiyaların tətbiqi əsasında yenidən qurulur. Zəngilan rayonunun Ağalı kəndi də belə yaşayış məntəqələrimizdən biridir. Layihənin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub. "Ağıllı kənd" layihəsinin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılıb. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi





ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Ağalıda kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcək. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən, müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb.

## "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək

"Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək. Erməni terror qüvvələri tərəfindən işğal edilərkən dağıdılan Ağdam şəhəri yenidən qurulur. Hazırda Ağdamda 120-125 minlik əhali tutumu olan müasir ağıllı şəhərin salınması sürətlə davam etdirilir. Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi, Xurşudbanu Natəvanın qəbirüstü abidəsi, Ağdam Cümə Məscidi yenidən bərpa olunur.2021-ci il oktyabrın 26-da Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılışı olub. Hava limanı ən müasir səviyyədə inşa edilib. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Prezidentlərə məlumat verilib ki, hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

## Qarabağda yenidənqurma prosesini daha da sürətləndirəcək

Təməli ötən ilin oktyabrında Prezident İlham Əliyev və Birinci xanım Mehriban xanım Əliyeva tərəfindən qoyulan Füzuli, Hadrut Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzləri, eləcə də 2022-ci ilin mayın 10-da istismara verilən Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi işğaldan azad edilmiş Qarabağda yenidənqurma prosesini daha da sürətləndirəcək. Azad torpaqlarda inşası davam edən və yekunlaşan yeni nəsil yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. İcrası başa çatan Güləbird Su-Elektrik Stansiyası, 7 yarımtsansiya, Suqovuşan və Talışa gedən yollar istifadəyə verilib, Zəfər yolu, Şuşanın su və elektrik təchizatı təmin edilib, Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, o cümlədən büstü, Üzeyir bəy Hacıbəylinin heykəli, Xarıbülbül və Qarabağ hotellərinin açılışı əlamətdar gün kimi zəfər tariximizin səhifələrinə yazıldı. Hadrutda inşası davam edən qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi isə xüsusilə əhəmiyyətli yarımstansiyadır. Şükürbəyli, Hadrut və Şuşa yarımstansiyaları arasında yaradılan qovşaq yarımstansiyası Hadrut qəsəbəsində, eləcə də Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarında qurulacaq infrastrukturun elektrik enerjisinə olan tələbatını qarşılayacaq. Dövlətimizin başçısının mayın 4-də açılışını etdiyi, Azərbaycanın ümumi enerji sisteminə yeni töhfə olan "Cəbrayıl" qovşaq yarımstansiyası Cəbrayıl-Naxçıvan-Türkiyə, oradan isə qardaş ölkənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə edib ixrac imkanlarını artırmaq baxımından xüsusi önəm daşıyır.

## "Araz Vadisi İqtisadi Zonası" işğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatına qovuşdurulması baxımından mühüm əhəmiyyət kəsb edir

Azərbaycan Prezidenti İlham Əliyevin mayın 4-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olması, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoyması işğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatına qovuşdurulması görülən işlərə böyük önəm verildiyini göstərir. Bu Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, rezidentlər dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilir, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək tədbirləri göstərilir. Həmçinin bu il yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Buraya sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə güzəştlər də daxildir.

## Şərqi Zəngəzurda yeni həyat qurulur

İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədr müavini Elkiyar Ziyadov mətbuata açıqlamasında bildirib ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı işğaldan azad olunmuş ərazilərin qısa zamanda Azərbaycan iqtisadiyyatına qovuşdurulması baxımından mühüm əhəmiyyət kəsb edir: "Rezidentlərin bu sənaye parkına marağı böyükdür. Logistik əhəmiyyətinə görə sənaye parkı Zəngəzur dəhlizinin yanına yaxınlaşdırılması, məhz dəmir yolu və avtomagistral yolun ortasında yerləşməsi də çox vacib əhəmiyyət kəsb edir".Azərbaycan Prezidenti İlham Əliyev mayın 4-də Zəngilan və Qubadlı rayonlarında 15-dək sosial-infrastruktur obyektinin təməllərini qoydu. Ən qısa zamanda və yüksək səviyyədə inşa olunacaq bu layihələr Zəngilan və Qubadlı rayonlarının Şərqi Zəngəzurun dilbər guşəsinə çevrilməsinə töhfə verəcək.Zəngilan şəhərində inşası davam etdirilən Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Bir sözlə, sürətlə davam etdirilən təmir, tikinti, quraşdırma işləri onu deməyə əsas verir ki, əhalinin böyük hissəi 2024-cü ili və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü öz isti, müasir evlərində qarşılayacaqlar.

**İ.ƏLİYEV**

# Naxçıvanın inkişafında yeni hədəf və prioritetlər




Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yenileşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində ölkəmizin qeyri-neft sənayesi də dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır. Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında uğurla davam etdirilir. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Dövlət proqramlarının icrası istiqamətində görülən işlər nəticəsində ölkənin hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Cənab İlham Əliyevin vurğuladığı kimi əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik:"Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq, abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq".

## NAXÇIVANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MÖHKƏM BÜNÖVRƏ

Bütün bunlar ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində mümkün olub. Bu gün dövlət başçısının müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanan kompleks quruculuq tədbirləri, həyata keçirilən çoxşaxəli islahatlar Naxçıvandan da yan ötməyib. Naxçıvan bu gün özünün tərəqqi dövrünü yaşayır. Qədim dövlətçilik tarixi olan Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl respublikalardan biri olan Azərbaycanda böyük sosial quruculuq işləri aparılır və bu inkişaf Naxçıvandan da özünü biruzə verib. Azərbaycan müstəqillik qazandıqdan sonrakı mərhələdə, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqilliyimizin banisi Heydər Əliyevin inkişaf strategiyası Naxçıvanın da sürətli inkişafına əhəmiyyətli təsir göstərirdi. Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülmüş, aqrar islahatlar reallaşdırılmış, infrastrukturun inkişafı istiqamətində mühüm işlər həyata keçirilmişdir. Məhz Ulu Öndərin siyasəti sayəsində Naxçıvanın inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulmuş, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılmışdır.

## YENİ KEYFİYYƏT MƏRHƏLƏSİ

Bu gün də Naxçıvanda bütün sosial, iqtisadi, infrastruktur və hərbi məsələlər yüksək səviyyədə öz həllini tapır. Naxçıvan Muxtar Respublikasının çoxşaxəli iqtisadiyyatının formalaşdırılması və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilir. Tarixi İpək Yolunun üstündə yerləşən, geostrateji əhəmiyyətə malik, türk dünyasının birliyi və həmrəyliyində oynadığı rolu ilə Naxçıvan fərqlənib. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnib. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Naxçıvanın iqtisadiyyatının inkişafının davamlılığının təmin edilməsində, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasında, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsində mühüm rol oynayacaqdır.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində, 2025-2027-ci illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini isə 2024-cü il iyulun 1-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edəcəkdir. Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir. Dövlət Proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir. Dövlət Proqramının əsas hədəf göstəriciləri dayanıqlı inkişafın təmin olunması, məşğulluq imkanlarının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, ətraf mühitin mühafizəsinin təmin olunmasıdır.

## İNKİŞAF DÖVRÜNDƏ ƏLDƏ EDİLƏN NAİLİYYƏTLƏR

Ölkədə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında görülmüş işlər infrastruktur layihələrinin həyata keçirilməsinə, Naxçıvan Muxtar Respublikasında qazlaşdırmanın tam



təmin edilməsinə, enerji təchizatının yaxşılaşdırılmasına, müasir yolların inşasına, sosial infrastruktur obyektlərinin tikintisinə, yeni müəssisələrin yaradılmasına və iş yerlərinin açılmasına səbəb olub. Dövlət Proqramında qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılıb, investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması üçün son 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi çərçivəsində idxal olunan 77,9 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq edilib. İxracın stimullaşdırılması məqsədilə müxtəlif ölkələrdə keçirilmiş tədbirlərdə yerli sahibkarlıq subyektinin dövlət dəstəyi ilə iştirakı təmin edilib və istehsal olunan məhsullar nümayiş etdirilib. Ötən dövrdə torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarı istifadəyə verilib. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası, o cümlədən 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 4,5 meqavat gücündə Heydər Əliyev su anbarı üzərində su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 20 meqavat gücündə "Biləv" su elektrik stansiyası, Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyaları, Babək rayonunun Xalxal kəndi ərazisində 22 meqavat gücündə Naxçıvan günəş elektrik stansiyası, Kəngərli rayonunda 5 meqavat gücündə, Şərur rayonunda 8 meqavat gücündə günəş elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası və 0,3 meqavat gücündə Culfa külək elektrik stansiyası istifadəyə verilib. Təbii qazla təchizat tam olaraq başa çatdırılıb, 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli və 82,2 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərləri tikilib istifadəyə verilib. Naxçıvan şəhərinin və onun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini içməli su və kanalizasiya xidməti ilə təmin etmək üçün gün ərzində 40 min kubmetr sutəmizləmə və 32 min kubmetr tullantı sutəmizləmə gücünə malik olan qurğular və ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib. Naxçıvan şəhərində, Əliabad qəsəbəsində, Tumbul, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində su xətti və kanalizasiya şəbəkəsi quraşdırılıb. Rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində 1685,7 kilometr fiber-optik xətt çəkilib. Naxçıvan Hava Limanı regionun aviasiya nəqliyyat əlaqəsi üçün yeganə vasitə olub və 2004-cü ildən Beynəlxalq Hava Limanı statusu qazanıbdır. Son on il ərzində şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olanlara və digər imtiyazlı şəxslərə 120 mənzil və 280 minik avtomobili verilib. Ölkədə 2017-ci ildən həyata keçirilən özünüməşğulluq proqramına Naxçıvan Muxtar Respublikası üzrə 1320 ailə cəlb edilib. Ötən müddətdə Ağbulaq istirahət və xizək mərkəzi, Duzdağ fizioterapiya mərkəzi və digər turizm obyektləri fəaliyyətə başlamış, regionda fəaliyyət göstərən mehmanxanaların sayı 10-a çatdırılıb. Ətraf mühitin mühafizəsi, yaşıllaşdırma, yol kənarlarında meşə zolaqlarının salınması istiqamətində işlər görülüb, eləcə də Arazboyu Dövlət Təbiət Yasaqlığı, Arpaçay Dövlət Təbiət Yasaqlığı və Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılıb. Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində bölgədə idman obyektləri, mədəniyyət müəssisələri tikilmiş və ya təmir olunmuş, müasir standartlara uyğun təhsil və səhiyyə müəssisələri əhalinin istifadəsinə verilib. Beləliklə, Naxçıvan Muxtar respublikasında görülən işlər göz qabağındadır.

## NAXÇIVANIN DAHA DA İNKİŞAF VƏ YÜKSƏLİŞİNDƏ MÜASİR ÇAĞIRIŞLAR

Mövcud çağırışlar Naxçıvanın daha inkişaf və yüksəlişinə təkan olacaq. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunub və Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün 8 tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılıb. Belə ki, Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcəkdir. Mütərəqqi dünya təcrübəsi göstərir ki, hər bir ölkənin, onun regionlarının, şəhər və kəndlərinin sosial-iqtisadi inkişafında çevik və səmərəli yanaşmaların və innovativ həllərin tətbiqi mühüm rol oynayır. Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə və onun müvafiq hədəflərinə uyğunlaşdırılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

təhlil

# Qidalarımızın keyfiyyəti bizi qane edirmi?

*Qida ekspertləri mövzu ilə bağlı fikirlərini açıqladılar*

**Ölkədə gündəmdə olan məsələlərdən biri də qida təhlükəsizliyi və qida keyfiyyətliliyi məsləsidir. Xüsusən yay ayrlarında qidaların tez-tez xarab olması, keyfiyyətinin aşağı düşməsi halları artır. SİA mövzuyla bağlı ekspertlərin fikirlərini öyrənib.**

**Mövzu ilə bağlı danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirib ki, qida keyfiyyətliliyi və qida təmizliyi



dedikdə ən əsası Azərbaycan vətəndaşlarının uzun ömürlülüyü əsas götürülmədir. Azərbaycan uzunömürlülük şkalasında 198 ölkə arasında 115-ci yerdədir. Çünki Hipokratın dediyi kimi: "Biz nə yeyiriksə, oyuq".

O, qeyd edib ki, ümumilikdə Qida Təhlükəsizliyi Agentliyi yarananda biz çox sevindik ki, bizim ən fəal dövlət stukturumuz, partnyorumuz yaranır: "Cənab Prezident həmin qurumun yaradılması üçün göstəriş verəndə ölkədə qida təhlükəsizliyinin təmin olunması üçün çox əhəmiyyətli bir addım atdı. Buna görə biz hamımız ona təşəkkür edirik. Lakin Qida Təhlükəsizlik Agentliyi yarandıqdan sonra biz vəziyyətin ciddi mənada dəyişdiyini görməmişik.Nə küçədə heyvan kəsilməsi halları azalıb, nə də qida təhlükəsizliyi tam təmin olunub. Zəhərlənmə halları, ölümlər gizlədilir. Keyfiyyət məsələsi kənarda qalıb. Qida Təhlükəsizliyi Agentliyinin əsasında qidanın təhlükəsizliyinin təmin olunması durur. Lakin təhlükəsiz qida , eyni zamanda keyfiyyətsiz qida bilər. Dəfələrlə keyfiyyət məsələsinə diqqət çəkməyə çalışmışam, amma hər kəs öz əsasnaməsinə uyğun işləyir və keyfiyyət məsələsi kənarda qalıb. Ya əsasnamələrdə dəyişiklik olunmalıdır, ya da keyfiyyət məsələsi başqa qurumların səlahiyyətinə verilməlidir. İnsanlar keyfiyyətsiz qida ucbatından apteklərdə, klinikalarda növbəyə dururlar. Bunlar hamısı qidaların keyfiyyətsiz olmasından qaynaqlanır. Xüsusən xaricdən gətirilən ət və ət məhsulları bazarından Azad İstehlakçılar birliyi çox intizarlıdır. Çünki başqa ölkələrdən, Rusiyadan, Belarusiyadan gətirilən ət və ət məhsulları Azərbaycan məhsullarından çox geri qaldığı halda yaxşı etiketlənmə, tərkiblərindəki dadverici, iyverici, rəngvericilər sayəsində marketlərdə onlara geniş yer ayrılır. Əhali də səhvən o cür qidalara üstünlük verirlər. Əfsus ki əhali arasında genişçaplı maariflənDirmə təbliğatları aparmaq çətindir.

Ona görə də biz yerli mallara üstünlük verilməsinin tərəfdarıyıq. Yerli və keyfiyyətli istehsal olunan ət məhsullarımız çoxdur.

Biz tez-tez metro çıxışlarında etiketləşməmiş qırmızı kolbasa satışlarının şahidi oluruq. Qida Təhlükəsizliyi Agentliyi belə halların qarşısını almağa ya qadir deyil, ya da qarşısını almaq istəmir. Bir sözlə, bizim



ömrümüzün qısa olması, apteklərin, xəstəxanaların dolub daşması məhz qida təhlükəsizliyimizin necə təmin olunmasının göstəricisidir".

**Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri Məhsəti Hüseynova da məsələylə bağlı fikirlərini bildirib:** "Doğrudur, ölkəmizdə keyfiyyətli qidalar var, amma keyfiyyətsiz qidalar da satışda həddən artıq çoxdur. Nə qədər standartlar mükəmməlləşdirilməyə çalışılsa da, yenə də keyfiyyətsiz məhsullar insanların ən çox qəbul etdiyi qidalar sırasındadır. Çünki keçmişdə bəzi xəstəliklər var idi ki, daha çox 50 yaşdan yuxarı insanlarda rast gəlinirdi. Bugünkü gündə isə keyfiyyətsiz qidaların sayəsində 18-20 yaşlı gənclərin əksəriyyətində mədə-bağırsaq sistemində pozğunluqlar, yara, qastrit, xora xəstəlikləri, maddələr mübadiləsinin pozulması, qəbizlik, eyni zamanda yeniyetmələr dövründə inkişafın doğru şəkildə getməməsi, dünyaya gələn körpələrə xromosom balanslı xəstəliklərin olması müşahidə olunur. Hər birinin qaynağı düzgün şəkildə qidalanmamaqdır.



Normalda süd məhsulları tez xarab olur. Ona görə də bu məhsulların rəf ömrü az olmalıdır. Bu gün həmin məhsulların üzərində iki aydan altı aya qədər ömrü olduğu qeyd olunur. Bu onu göstərir ki, o süd məhsulları təbii deyil və tərkibində kifayət qədər qatqı maddələrindən istifadə olunur. Belə məhsullar da insan orqanizmi üçün faydalı hesab olunmur. Eyni zamanda, Azərbaycanda 9 iqlim qurşağı yerləşir. İlin istənilən fəslində meyvə-tərəvəzlərimizin bol olmasına baxmayaraq yenə də xaricdən gətirilən məhsullar satılır ki, bunların da əksəriyyəti sağlamlıq baxımından insan orqanizminə fayda vermir. Çünki həmin meyvə-tərəvəzlərin özünə də qabığına da müəyyən müdaxilələr olunur.

Sular belə tam şəkildə standarta uyğun istehsal olunmur. Bəzi markalar var ki onların istehsalı düzgün şəkildə həyata keçirilir. Bunu biz bütün məhsullara aid edə bilərik. Son vaxtlar aidiyyatı üzrə qurum olan Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin nəticələri belə göstərir ki, ölkəmizdə kifayət qədər keyfiyyətsiz məhsul istehsal edən şirkətlər var. Bu halların qarşısını almaq üçün ilk növbədə nəzarət sistemi gücləndirilməlidir. Təbii ki, aradan qaldırıla bilən və ya bilinməyən aşkar olunan nöqsanlar insan sağlamlığına zərər verə biləcək amillərdisə, həmin müəssisələr ciddi şəkildə cəzalandırılmalıdır. Hər satışa buraxılan məhsulların yoxlanılması aparılmalıdır. Çünki istehlakçılar nə qədər maariflənsə də, heç də hər biri keyfiyyətli məhsulu seçəcək qədər maarifli deyil. Mütləq şəkildə satış yerləri və istehsal müəssisələrində monitorinqlər aparılmalıdır".

***Fazil Mehdixanlı***

"GP SOY PROCESSİNG" MMC
31 dekabr 2022-ci il tarixində bitmiş il üzrə
Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Konsolidasiya edilmiş mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 25 | 44 573 294.39 | 5 191 622.57 |
| Satışın maya dəyəri | 25 | (43 041 028.16) | (5 157 716.90) |
| **Məcmu mənfəət** | | **1 532 266.23** | **33 905.67** |
| Ümumi və inzibati xərclər | 27 | (1 683 924.73) | (77 596.57) |
| **Faiz, vergi və amortizasiyadan əvvəlki mənfəət** | | **(151 658.50)** | **(43 690.90)** |
| Torpaq ,tikili və avadanlıqlar üzrə amortizasiya | 3 | (352 846.43) | (68.88) |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 4 | (646.14) | - |
| **Faiz, vergidən əvvəlki mənfəət (Əməliyyat mənfəəti)** | | **(505 151.07)** | **(43 759.78)** |
| Digər qeyri-əməliyyat gəliri və ya (xərci) | 26 | 739 790.97 | 250 569.62 |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **234 639.90** | **206 809.84** |
| Mənfəət vergisi xərci (20%) | | (86 336.74) | (41 809.82) |
| **Hesabat dövrünün xalis mənfəəti / (zərəri)** | | **148 303.16** | **165 000.02** |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri) aiddir:** | | | |
| **Qrupun səhmdarlarına (payçılarına)** | | **148 717.94** | |
| **Qeyri-nəzarət paylarına** | | **(414.78)** | |

Direktor: İslamzada Nəsib
"GP SOY PROCESSİNG" MMC
Baş mühasib:
M.Y.
*"01" may 2023-cü il*

8

11-31-ci səhifələrdə göstərilən qeydlər bu konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

"GP SOY PROCESSİNG" MMC
31 dekabr 2022-ci il tarixində bitmiş il üzrə
Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| **Uzunmüddtli aktivlər** | | | |
| Torpaq,tikili,avadanlıqlar | 5 | 5 749 578.49 | 4 063.62 |
| Qeyri-maddi aktivlər | 6 | - | - |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 7 | 231 609.53 | - |
| Asılı və birgə müəssisələrə investisiyalar | 8 | 477 356.52 | - |
| Sair uzunmüddətli aktivlər | 9 | - | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **6 458 544.54** | **4 063.62** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 10 | 19 222 046.64 | 6 884 165.39 |
| Ticari debitor borclar | 11 | 6 150 502.80 | 2 358 055.15 |
| Sair qısamüddətli aktivlər | 12 | 4 742 563.78 | 196 349.28 |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmələr | 12 | 14 289.39 | 42 718.85 |
| Pul vəsaitləri və onun ekvialentləri | 13 | 1 440 188.73 | 849 521.59 |
| **Cəmi qısamüddətli aktivlər** | | **31 569 591.34** | **10 330 810.26** |
| **Cəmi aktivlər** | | **38 028 135.88** | **10 334 873.88** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14 | 5 765 160.00 | 100.00 |
| Kapital ehtiyatları | 14a | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 14b | 148 717.94 | 165 000.02 |
| Asılı müəssisələrin bölüşdürülməmiş mənfəətində (zərərində) pay | 8 | 559 698.93 | |
| Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) | 14c | 2 334 068.48 | 2 173 266.07 |
| **Cəmi kapital** | | **8 807 645.35** | **2 338 366.09** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 15 | 10 000 000.00 | - |
| Uzunmüddətli alınmış borclar | 16 | - | - |
| Təxirə salınmış vergi öhdəlikləri | 17 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar | 18 | - | - |
| Digər uzunmüddətli öhdəliklər | 19 | - | 34 729.11 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **10 000 000.00** | **34 729.11** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticari kreditor borclar | 20 | 10 688 381.41 | 306 781.04 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 21 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 22 | 9 267.66 | 9 719.10 |
| Qısamüddətli alınmış borclar | 23 | 2 606 100.00 | - |
| Sair qısamüddətli öhdəliklər | 24 | 5 916 741.46 | 7 645 278.54 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **19 220 490.53** | **7 961 778.68** |
| **Cəmi öhdəliklər** | | **29 220 490.53** | **7 996 507.79** |
| **Cəmi kapital və öhdəliklər** | | **38 028 135.88** | **10 334 873.88** |

Direktor: İslamzada Nəsib
"GP SOY PROCESSİNG" MMC
Baş mühasib:
M.Y.
*"01" may 2023-cü il*

7

11-31-ci səhifələrdə göstərilən qeydlər bu konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.



# Heyvanlara əziyyət verməyin dində günahı nədir?

**Heyvanları gücü çatmayan işlərə qaçaraq yormaq, döymək, üzünə vurmaq, işgəncə vermək, ac-susuz qoymaq insanlığa yaraşan addım deyil. Belə bir hərəkət dərdini deyə bilməyən canlılara qarşı zülmdür. Allahdan başqa heç bir himayədarı olmayan bu dilsiz canlılara qarşı amansız olmağın cəzası çox ağırdır.**

SİA mövzu ilə bağlı araşdırma aparıb. Müsəlmanın qəlbi insanlara və digər canlılara qarşı sevgi və şəfqət hissləri ilə doludur. O, heç kimə zərər verməməli, ehtiyacı olanlara kömək etməlidir. Allah da belə insana rəhm edər.

Peyğəmbərimiz (s) buyurur: "Allah rəhm edənlərə qarşı mərhəmətlidir. Yerdəkilərə rəhm et ki, göydəkilər də sənə rəhm etsinlər". "Rəhm etməyənlərə mərhəmət yoxdur". Müsəlman təkcə insanlara deyil, digər canlılara da şəfqətlə yanaşmalıdır. Allah yaratdığı məxluqlara rəhm edənlərin günahlarını bağışlayar.

Peyğəmbərimiz (s) buyurur: "Bir gün bir adam yolda gedərkən çox susamışdı, axırda bir quyu tapıb su içdi. Bu vaxt bir it dilini çıxarıb susuzluqdan nəmli torpağı yaladı. Sonra o adam "Bu it







## ARAŞDIRMA

də mənim kimi susuzdur" dedi. Bundan sonra quyuya endi və itə su içdirdi. Allah onun bu davranışından razı qaldı və onu bağışladı.

Dinimiz təkcə insanların deyil, heyvanların da haqqına hörmət edilməsini, onlara mərhəmət göstərməyi əmr edir. Hər bir heyvandan yaradılış məqsədinə uyğun bəhrələnməli və ondan başqa məqsədlər üçün istifadə edilməməlidir. Bacarıqlı heyvanların vaxtında qidalanmasına diqqət etməli, onları ac və susuz qoymamaq lazımdır. Peyğəmbərimiz aclıqdan qarnı yapışmış bir dəvəyə rast gələrək, "Bu lal heyvanlar barəsində Allahdan qorxun, onlara tox minin, ətlərini tox yeyin" buyurdu.

Müsəlman heyvanlara işgəncə verməkdən çəkinməlidir. Bəzi bölgələrdə heyvanları döyüşdürmək kimi çox pis bir adət var. Heyvanların bir-biri ilə vuruşmasına baxmaq heyvanlara qarşı amansızlığın başqa bir formasıdır. Peyğəmbərimiz heyvanları bir-biri ilə döyüşdürməyi qadağan etmiş və heyvanlara işgəncə verənləri lənətləmişdir. Hər canlının yaşamaq hüququ var. Hər bir canlı müqəddəsdir. Hər canlının bir ruhu var. Hər canlı ağrı hiss edir. Hər canlı xoşbəxt ola bilir. Bu xoşbəxtlik olmasa, pişik və itin balasını qucaqlamasını necə izah etmək olar?



Heyvanların döyüşməsi mərhəmətsizliyin nəticəsidir. Heyvanlarla döyüşdürmək qumar etmək halıdır ki, bu da haramdır. Buğa, it, xoruz, dəvə və digər heyvanları döyüşdürmək dini zülm və haramdır. Bu döyüşdən pul qazanmaq da başqa bir günahdır.

Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev: "Ümumiyyətlə, zülm ifadəsi dinimizə uzaq bir anlayışdır. Zülmü heç bir canlıya etmək olmaz, nəinki hansısa bir heyana.

İslam dinində bəzi heyvanları saxlayıb məişət həyatında ondan qida kimi istifadə edirlər. Dinimizdə halal qidalar var ki, onlardan biri də heyvan, yəni quş ətindən istifadə etməkdir. Həzrət Əli Əleyissalamın gözəl bir sözü var: "Bətnlərinizi heyvan qəbiristanlığına döndərməyin". Yəni, səhər-axşam ət yeməyə özünüzü alışdırmayın. İnsan ətlə qidalana bilər, amma buna hər gün ehtiyac yoxdur. Ayın müəyyən günlərində ətlə qidalanmaq kifayətdir.

Qurban bayramında "İsmayıl qurbanı" kəsilir və həmin qurbanın əti yoxsullar arasında bölünür. Dinimizdə buyrulur ki, qurban heyvanını kəsməmişdən öncə ona su içirin, sonra onu qurbanlığa aparın. Bıçaq küt bıçaq olmamalı, heyvana əziyyət verilməməlidir. Hətta qurban kəsilən heyvana belə mərhəmətlə yanaşılmağı İslam dini bizə əmr edir. Əgər həyət-bacanda bir heyvan saxlayırsansa, onların qidasını vaxtı-vaxtında verə bilməsən günahkar olarsan. Onlara qarşı mütləq diqqətli və mərhəmətli olmalısan. Dinimizdə heyvanları ac saxlamaq günahdır.

Elə heyvanlar var ki, insanlar onlardan məişət həyatında minik vasitəsi kimi istifadə edir. Heyvana elə yük vurulmalıdır ki, ona əzab verməsin. Bu heyvanlara nə qədər yük vurulacağı, onların neçə saat işlədiləcəyi dəqiqləşdirilməlidir. Onlara mütləq rəhm və mərhəmətlə yanaşılmalıdır.

Məsələn, məişət həyatımızda, xüsusilə də kənd həyatında həyət-bacanı və mal-qaranı qorumaq üçün itdən istifadə edirik. İslam dinində evdə itin saxlanılması bəyənilmir. Amma həyət-bacada mal-qaranı qorumaq üçün it saxlamaq olar. İnsan mərhəmətlə yanaşa bilməyəcəyi heyvanı saxlamamalı və ona əziyyət etməməlidir. Ümumiyyətlə, İslam dini canlıya olan mərhəməti tələb və təkid edir. Heyvanlara əziyyət vermək isə haram və günahdır. Allah bizi mərhəmət sahiblərindən qərar versin. Biz ətrafımızda olan bitkilərə belə mərhəmətlə, rəhmlə və ədalətlə yanaşmalıyıq. Allahın yaratdığı nə varsa, onlara sevgi və qayğı verməliyik".

***Ayşən Vəli***

ŞƏRH+AKTUAL

# Türkiyə - Ukraynadakı müharibə kontekstində və Azərbaycan reallığı

*Ərdoğanın "Dünya beşdən artıq!" şüarı düyanın yeni reallıqlarını aktuallaşdırır*



**Ukraynada hərbi əməliyyatlar başladıqdan cəmi bir neçə gün sonra beynəlxalq mətbuatda və diplomatik dairələrdə Montrye Konsvensiyası ilə bağlı Türkiyənin hansı mövqe nümayiş etdirəcəyi ilə bağlı fəal müzakirələrə start verildi. Nəticədə qərar qəbul olundu...**

Lakin maraqlıdır ki, qərar qəbul edildikdən sonra onunla bağlı həm Ukrayna, həm Rusiya, həm də ABŞ məmnun qaldılar. Görünən isə budur ki, mövcud vəziyyətdə Türkiyə effektli diplomatiya siyasəti nümayiş etdirdi və bu siyasət, əsasən, Türkiyə prezidenti Ərdoğanın istər hərbi, istərsə də iqtisadi cəhətdən möhkəm iradəsinə söykənir. Ən əsası isə bu, Türkiyə prezidentinin xarici siyasət baxımından öz sözünün üzərində dayanması faktorudur. Yəni bu gün beynəlxalq siyasi arenada Ərdoğanın istənilən situasiyadan çıxışı üçün hansı bacarığının olduğunu və nə edəcəyini yaxşı bilirlər.

Qardaş ölkədə keçirilən prezident seçkilərindən sonra isə Türkiyənin xarici siyasət reallığı artıq özünü göstərməyə başlayıb. Ankara-Ərdoğanın inaqurasiyasına gələn 200-ə yaxın dövlət başçılarının, eləcə də nüfuzlu siyasət adamlarının da iştirakı bir sıra məsələləri önə sürməkdədir. Bütün bunların Rusiya-Ukrayna müharibəsinə hansı təsirlər göstərəcəyi də kifayət qədər maraq doğurmaqdadır...

### Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin ardınca beynəlxalq siyasi sistem mexanizmlərində yeni çağırışlar, trendlər yaranır

Fakt budur ki, bu gün Türkiyə Rusiyaya qarşı tətbiq edilən sanksiyalara qoşulmur, amma Ukraynaya hərbi yardımlarını göndərməkdədir. O cümlədən, danışıqlar üçün meydança da təklif edir. Bütün bu baş verənlər fonunda, daha dəqiq desək, Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin ardınca beynəlxalq siyasi sistem mexanizmlərində yeni çağırışlar, trendlər yaranır və bütün bunların fonunda Ərdoğanın "Dünya beşdən artıq!" şüarı daha da aktuallaşır. Belə ki, bu ədalətli çağırış BMT-nin Təhlükəsizlik Şurasındakı 5 daimi dövlətin hegemoniyasının müasir dünyamız üçün artıq qəbuledilməz olmasına aiddir.

Eyni zamanda, BMT TŞ-da daimi yer alan ölkələr arasında zaman-zaman yaranan, bəzən isə köklü şəkildə yaranan fikir ayrılıqları artıq qarşıdakı zamanda növbəti problemləri ortaya çıxara bilər: Bu sistem uğursuz fəaliyyəti ilə daha çox yadda qalmağa başlayıb.

Məhz bu kimi artan müstəqil qərarlar və israrlar vasitə ilə bütövlükdə BMT-nin dünyanın qlobal məsələlərdəki əhəmiyyəti azalacaq, yaxud Təhlükəsizlik Şurasının qərarları əhəmiyyətli sayılmayacaq. Regional liderlər BMT TŞ-nın qəbul etdiyi qərarlara əhəmiyyət verməyərək öz ambisiyalarını daha çox yürütməkdə israrlı olduqlarını nümayiş etdirirlər. Məhz bu kimi artan müstəqil qərarlar və israrlar vasitə ilə bütövlükdə BMT-nin dünyanın qlobal məsələlərdəki əhəmiyyəti azalacaq, yaxud Təhlükəsizlik Şurasının qərarları əhəmiyyətini itirəcək.

### Ərdoğanın ədalətli şüarı və Əliyevin qətiyyətli bəyanatları!

Təbii ki, son dövrlərdə dünyanın siyasi arenasında öz əhəmiyyəti ilə seçilən Azərbaycanın da burada rolu böyükdür. Artıq Bakı yeni və çağdaş siyasət reallığında özünün müasir çağırışları və imkanları ilə çıxış edir. Digər tərəfdən, bu gün Azərbaycanın Ermənistanla da həll edilməmiş məsələləri qalmaqdadır. Və söz yox ki, Azərbaycan məhz beynəlxalq hüquq normalarından çıxış etməklə ən sonuncu sözünü deyə bilər və görünür, bunun üçün şərait də yaranmağa başlayıb.

### Ermənistanın qatarın sonuncu vaqonuna çatmasına hələ ki, vaxtı var...

Bu gün Ermənistan anlamalıdır ki, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar heç də BMT TŞ-nın rolu ilə deyil, ayrı-ayrı ölkələrin verdikləri müstəqil qərarlar hesabına reallaşdırılır. Həmçinin, verilən sanksiyalar həm də iqtisadiyyatının mühüm hissəsinin asılı olduğu Ermənistana da öz təsirlərini göstərəcək. Ümumilikdə isə, 30 il BMT-nin çıxardığı 4 qətnaməsini icra etməyən Ermənistan anlamalıdır ki, Azərbaycanın özünümüdafiə instinkti mövcud reallıqlar qarşısında dəyişilməyib, əksinə, daha da güclənib. Əgər Ermənistanda bunu nə qədər tez anlasalar, onda qatarın sonuncu vaqonuna bəlkə də (!) çata bilərlər.

Belə olan halda, Ərdoğanın məşhur və ədalətli şüarı tam yerinə düşür və Bakının yerinə hər hansı ölkələrin qərar verməsi əhəmiyyəti itir. Bu xüsusda, 44 günlük müharibə zamanı Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli çıxışları, habelə bir sıra beynəlxalq struktur və təşkilatları, eləcə də ayrı-ayrı dövlətləri, əsasən də, Ermənistanın işğalçılıq siyasətinə dəstək göstərən tərəfləri haqlı olaraq qınamasını da xatırlatmaq olar.

***Afət Tahirqızı***

# 50 milyardlıq tələb



**Vəli Vəliyev**

Hamı həsrətlə bu günü gözləyir. Səbirsiz olub müxtəlif rəqəmlər səsləndirənlər, hətta daha "dəqiq" məlumata sahib olduqlarını isbat etməyə çalışanlar da az deyil. Bəli, söhbət Ermənistanın Azərbaycana ödəməli olduğu, ödəyəcəyi, ödəməyə borclu olduğu və hətta ödəməkdən başqa çıxış yolu qalmadığı təzminatdan gedir. Nə üçün? Hələ də fil qulağında yatan bəndələrə baş verənləri, torpaqlarımızın kim tərəfindən işğal olunduğunu və bu ikiayaqlı yırtıcıların bir milyona yaxın vətəndaşımızı öz isti ocağından necə didərgin saldıqlarını, evləri necə viran qoyduqlarını, on minlərlə insanımızı qətlə yetirdiklərini, minlərlə azərbaycanlını əsir-girov götürdüklərini, 5 minə yaxın soydaşımızı izsiz-soraqsız itirdiklərini, milli-mədəni abidələrimizi taladıqlarını, dini abidələrimizi dağıtdıqlarını, onlara qarşı vandallıq etdiklərini, yeraltı və yerüstü sərvətlərimizi qərbli ağalarının dəstəyi ilə sömürdüklərini bir daha sadalamalı olacağıq.

Əlbəttə, bütün bunlara görə cinayətkar etdiklərinə görə cəzalandırılmalıdır. İşğalçı erməni ordusunun əsgəri döyüş meydanında öz canı ilə bunun bədəlini ödədiyi kimi, onun başında duranlar, öz xalqını uydurma ideologiyanın qurbanına çevirənlər, özlərini "məzlum millət" çətirinin altında gizlədib məskunlaşdığı torpaqların əsl sahiblərinə xəyanət edənlər də məhşər ayağına çəkilməlidirlər. Dövlət adlanan, əslində isə dərnək təmayüllü qondarma qurum - Ermənistan isə öz büdcəsinə əl gəzdirməklə, yaxud dibini süpürməklə, hətta ağalarında külli miqdarda para borclanıb borcluya - Azərbaycana ödəməklə canını qismən qurtara bilər.

Kimsənin zərrə qədər də şübhəsi olmasın ki, Ermənistan Azərbaycana vurduğu ziyanı qəpiyinə, şahısına, abbasısına, dinarına-dirhəminə qədər ödəyəcək. Artıq Ermənistanda da bu barədə danışırlar. Ermənistan mətbuatına müsahibəsində politoloq Argişti Kiviryan deyib ki, Azərbaycan Ermənistandan 50 milyard dollar məbləğində təzminat tələb edəcək: "Azərbaycan əraziləri qanunиləşdirir. Ola bilsin ki, Azərbaycan Zəngəzur (ermənilər Sünik deyir) dəhlizini öz yurisdiksiyasına verilməsini tələb etsin".

Rusiyalı hərbi ekspert İqor Korotçenko bildirib ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində vurulan maddi ziyana görə Azərbaycana təzminat ödənişi məsələsi əsaslı olaraq müzakirəyə çıxarılmalıdır. O, Ermənistanın törətdiyi dağıntıları qiymətləndirərək deyib ki, Qarabağda az qala hər şeyin ucdantutma məhv edildiyi nəzərə alınsa, ödəniləcək təzminat təxminən, 60-100 milyard dollar həcmində ola bilər. Sözsüz ki, Qərb ölkələrindəki erməni lobbisi də, erməni diasporu da bu məsələnin baş tutmaması üçün Azərbaycan hökumətinə hərtərəfli təzyiqlər göstərəcək.

Ona görə də Ermənistanın işğal etdiyi torpaqlarda törətdiyi dağıntılara görə Azərbaycana təzminat ödəməsi istiqamətində beynəlxalq hüquq çərçivəsində məsələ qaldırılmalı, əsaslandırılmalı, həll edilməsi üçün beynəlxalq birliklə birgə addımlar atılmalıdır. Bu məsələni qaldırmaq, beynəlxalq qurumların müvafiq qərarlar vermələrinə nail olmaq üçün Azərbaycan XİN və aidiyyəti qurumlar lazımi çalışmalar aparmalıdırlar.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində təkcə ekologiyaya dəyən ziyan 16,2 milyard manat həddindədir. Baş Prokurorluq və Azərbaycan XİN-in hesabatlarında da bu rəqəm göstərilib. 6 xarici şirkət işğal olunmuş ərazilərdə qanunsuz təsərrüfat fəaliyyəti həyata keçirərək Azərbaycana 306,8 milyon manat məbləğində ziyan vurub. Əslində, qat-qat böyük bir məbləğdən söhbət getməlidir və gedəcək.

Bəzi mənbələr isə Ermənistan tərəfindən Azərbaycana ödənilməli olan təzminatın 1 trilyon dollar oldundan danışır. Atatürk Universitetinin iqtisadiyyat və idarəetmə fakültəsinin müəllimi Kərəm Qarabulutun fikrincə, ermənilərin Azərbaycan torpaqlarına vurduğu ziyanın məbləği bundan az deyil. Azərbaycana dəymiş ziyan 2020-də 50 milyard dollar civarında qeyd olunurdusa, 2021-də 70, 2022-nin əvvəli 90 milyard dollar olaraq dəyərləndirilirdi. Rəqəmlərdəki fərqin səbəbi odur ki, dəymiş ziyanın hesablanması hər yerdə aparılmır. Hələ də Şuşa ətrafı kəndlər, Xocavəndin yarısı, Ağdərə, Əsgəran, Xankəndi, Xocalı kimi rayonlar sülhməramlıların nəzarətində, dolayısı ilə qanunsuz erməni birləşmələrinin mövcud olduğu ərazidir. Belə olan halda dəymiş ziyanın məbləği də artırır. İrəvanın Bakıya ödəməli olduğu təzminatın tam məbləği yalnız sülh müqaviləsindən sonra, sülhməramlıların müvəqqəti məsuliyyət zonasının Azərbaycan qanunvericiliyinə keçməsindən sonra hesablanacaq.

30 il ərzində dəymiş ziyana görə maddi təzminatın tələb olunması ilkin olaraq Ağdam, Füzuli, Hadrut, Şuşa, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcərə dəymiş ziyana görə hesablanacaq. Ermənistanı yüz milyardlarla dollar ödətməyə nail olmaq realdır. Müflisləşmə Ermənistanda vətəndaş müharibəsini alovlandıracaq. Belə olan halda Zəngəzur dəhlizini açmaq asanlaşar. Xocalı vəhşiliklərinə, Ağdərənin, Kəlbəcərin, Zəngilanın qızıl və digər qiymətli yataqlarını taladığına görə ermənilər cavab verməli olacaqlar. Aparılan işğalçı müharibə, terror nəticəsində ölkəmizə yüz milyardlarla dollar zərər vurulub, minlərlə insanımız öldürülüb, şikəst edilib, itkin düşüb, 20-ci əsrin ən böyük müharibə cinayətlərindən olan Xocalı soyqırımı törədilib. Bütün bunların maddi dəyəri məbləğlə, rəqəmlərlə ölçülə bilməz.

# Rusiyalı politoloq: "Azərbaycan gözləməkdən yorulub"

Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991), politoloq Andrey Fedorov "Moskva-Bakı"ya müsahibəsində Ermənistan-Azərbaycan nizamlanmasında davam edən danışıqlar "marafonları"nın nədən xəbər verdiyini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Andrey Vladimiroviç, mayın əvvəlindən biz Ermənistan-Azərbaycan nizamlanması üzrə danışıqlar "marafonunu" müşahidə edirik. May ayından bəri Vaşinqton, Moskva, Brüssel və Kişinyovda ən azı 6 sammit və yüksək səviyyəli görüşlər keçirilib. Qərb artıq iyunun 12-də Vaşinqtonda xarici işlər nazirləri arasında danışıqların keçiriləcəyini bəyan edib. 21 iyul - Azərbaycan və Ermənistan liderləri Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə görüşəcək. Oktyabrda Əliyev-Paşinyan-Mişel-Makron-Şolz formatında görüş nəzərdə tutulub. Getdikcə daha çox qərb platformalarını görürük...***







- Mənim fikrimcə, problem ondadır ki, biz Rusiya-Azərbaycan-Ermənistan üçlüyü çərçivəsində danışıqlar prosesini və vasitəçi kimi rəhbərliyimizi saxlaya bilmədik. Bunun obyektiv və subyektiv səbəbləri var. Əsas problem Rusiyanın Ukraynadakı prosesə daha çox fokuslanmasıdır. Bundan əlavə, bu, Ermənistanın nizamlamada irəli getmək istəməməsi və Qərbin regionda fəallaşmasıdır. Bəli, bundan başqa, obyektiv olaraq, nizamlanmada "üçlük" iradəsinin olmaması.

Rusiya İkinci Qarabağ Müharibəsi zamanı 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatın imzalanmasına nail olmaqla, nizamlanmada əsas vasitəçi statusunu önə çəkib. Məhz bu nizamlanma sxemi qurulub. Ancaq hər şeyə diqqət yetirmək lazım idi. Məsələ ondan ibarətdir ki, başlanılan prosesi daha da inkişaf etdirmək lazımdır.

Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsi çətin, mürəkkəb prosesdir. Əgər tərəflər hansısa sənəd imzalayıblarsa, bu o demək deyil ki, sabah Azərbaycanla Ermənistan arasında hər şey birdən-birə yaxşılaşacaq, sevgi, dostluq, münasibət... Belə olmur.

Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatına uyğun olaraq, Rusiya nizamlanma üçün prioritet addım kimi nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılmasını müəyyən edib. Burada Rusiya baş nazirinin müavini Overçuk liderlərin mayın 25-də Moskvada keçirilən üçtərəfli görüşünün yekunlarına əsasən bildirib ki, layihənin Azərbaycanın qərb regionları- Meğri-Naxçıvan regionlarında həyata keçirilməsinə dair razılaşmanın olduğu görünür. Ancaq oxşar bəyanatlar bir il əvvəl yayımlanmışdı...

Əsas üçtərəfli bəyanat imzalananda belə başa düşülürdü ki, çox tezliklə Azərbaycan və Ermənistan arasında - Rusiyaya, İrana qatarlar hərəkət edəcək... Qatarlar hərəkət edir, yüklər gedir, rabitə bloku açılır  Belə oldumu? Yox. Razılaşmalar gözləntilər probleminə çevrilib. Biz gözləyirdik ki, tərəflər daha da istəkli şəkildə danışıqlar aparsınlar. 2,5 il keçdi, hələ də razılığa gələ bilməmişik. Onlar razılaşmayanda isə proses donub qalır.

Siyasi həll konkret nəticələrlə dəstəklənmir. Bu çox böyük problemdir. Prosesin davam etməsi üçün iradə lazımdır. O da yoxdur. Yəqin ki, hər üç tərəfdən.

***- 10 noyabr 2020-ci il tarixli müqavilələrlə yaradılmış sxem işləmir, yoxsa işləməsinə imkan verilmir?***

- Mən belə deyərdim: bu üçtərəfli müqavilələr bir bulyondur. Və o, heç vaxt tam hüquqlu bir şorbaya qədər böyümədi. Hələ bir bulyon olaraq qalır- ət, məzmun, dolğunluq yoxdur. Müqavilələrin icra mexanizmi aydın şəkildə göstərilməyib. Sazişlərin icrasına lap əvvəldən mütəmadi olaraq üçtərəfli monitorinq təyin etmək lazım idi. Məsələn, biz yolun açılmasına razılaşdıq- bunu ayrı bir sənədlə düzəldirik. Sözlə razılaşmırıq, tələffüz edirik, amma sənədləşdiririk, qanuni olaraq düzəldirik. Bu sənəddə biz bu layihənin həyata keçirilməsi üçün vaxt çərçivəsini müəyyənləşdirmişik.

Əgər nəticə istəyiriksə, nəhayət, 2,5 ildən sonra ümumi bəyannamədən onun bəndlərinin həyata keçirilməsinə keçməliyik. Onları paketlərə ayırın: biz bunu edə bilərik- biz bunu edirik. Biz bunu bacarmırıq- etmirik. Artıq başa düşdük ki, eyni anda hər şeyi edə bilmərik.

Bundan əlavə, Ermənistan indi yol ayrıcındadır və hansı istiqamətə gedəcəyini düşünür. Sabit və aydın mövqeyə malik Azərbaycandan fərqli olaraq, İrəvanın asılı olduğu amillər az deyil. Ermənistanın qərar verməsi Azərbaycandan qat-qat çətindir və bu, həm də Ermənistan-Azərbaycan prosesinə, Cənubi Qafqazdakı vəziyyətə, Rusiya-Ermənistan münasibətlərinə təsir edir.

Buna görə də yeni beynəlxalq miqyas genişlənir. Ermənistan-Azərbaycan prosesinə qarışan oyunçuların sayı artır, getdikcə daha çox platformalar formalaşır, əsasən Qərb platformaları. Qərbin hərəkətlərinin bu intensivliyi isə Ermənistan-Azərbaycan nizamlanmasına dair Moskvanın vasitəçiliyi ilə əldə edilmiş bütün əvvəlki razılaşmaların "ləğv edilməsinə" gətirib çıxarır. Qərbin Rusiya inkişaflarından istifadə etdiyini heç kim inkar etməsə də, Rusiyanın vasitəçiliyi ilə bu nailiyyətlər qismən işə başlayıb.

Başa düşmək lazımdır ki, danışıqlar prosesinin ləngiməsi, onun beynəlmiləlləşdirilməsi təbii ki, Ermənistana sərf edir. Çünki yalnız belə bir danışıqlar prosesi çərçivəsində İrəvan bundan sonra nə edəcəyini, KTMT ilə nə edəcəyini anlaya bilər.

***- Qərblə Rusiyanın taktikası fərqlidir: Qərb açıq şəkildə göstərir ki, intensiv görüşlər təşkil edir. Kreml bu yaxınlarda bəyan etdi ki, vacib olan sürət deyil, nəticədir... Lakin bununla yanaşı, danışıqlarda iştirak edən tərəflər artıq may ayında Vaşinqtonda keçiriləcək danışıqlarda böyük mövqelərin razılaşdırılması üçün danışıqlar aparıldığını dilə gətirməyə başlayıblar. Hətta Moskva bu yaxınlarda etiraf etdi ki, ötən ilin oktyabrında keçirilmiş Praqa danışıqlarında irəliləyiş var.***

- Nəticə, təbii ki, hər zaman önəmlidir... Bunun Rusiyaya sərfəli olub-olmayacağından söhbət gedir ki. Müəyyən mərhələdə Qərb sadəcə olaraq bizdən yan keçə bilər. Əvvəlki müqavilələrin sadəcə "ləğv edildiyinə" əmin olmaq üçün. Və Rusiya olmadan da danışıqlar aparacaqlar. Bu, əlbəttə ki, ən pis variantdır. Ancaq bunu istisna etmək olmaz. Və bu baş verərsə, Moskvanın razılaşmaları geri çevirməsi mümkün olmayacaq. Burada artıq "prosesi kim idarə etdi, o qazandı" prinsipi işləyəcək. Və Ermənistanla münasibətlərə diqqət verilməlidir. Respublikanın KTMT-dən çıxması ilə bağlı bəyanatlar çox ciddidir. Və bu baş verərsə, başqa geosiyasi reallıqlara gətirib çıxaracaq.

Ermənistanın Aİİ-də qalması və KTMT üzvlüyündən çıxması və ya dondurulması sxemi Nikol Paşinyanı qane edəcək. Birinci mərhələdə, onun sadəcə olaraq üzvlüyünü dondurması daha sərfəli olardı. Ermənistan iqtisadiyyatı üçün Avrasiya İqtisadi Birliyinə üzvlük çox vacib məqamdır. Bu puldur: Ermənistan vətəndaşları heç bir problem olmadan Aİİ ölkələrinə işləməyə gedə biləndə və s. Və əgər Ermənistan KTMT-dən çıxsa, biz cavab olaraq heç nə etməyəcəyik. Çox güman ki, biz sadəcə olaraq narahatlığımızı bildirəcəyik. Moskva Ermənistanı ən azı müəyyən qədər öz təsir zonasında saxlamalıdır. Biz indi Ermənistana Qərbdən artıq sərmayə qoya bilmərik. Qərbin isə bu məsələdə əli sərbəstdir.

Qərb üçün Cənubi Qafqaz ölkələrini öz təhlükəsizlik sisteminə inteqrasiya etmək vacibdir. Qərb Rusiyanın olmayacağı Transqafqazda öz təhlükəsizlik sistemini yaratmaq istəyir. Bəli, bu, bizim regionda təsirimizi çətinləşdirə və onu azalda bilər.

***- Azərbaycan bir müddət əvvəl işarə etdi ki, bu gün bir neçə vasitəçi var, lakin onların hansının səyləri beynəlxalq hüquq prinsipləri əsasında Bakı ilə İrəvan arasında sülhün əldə olunması baxımından ən təsirli olsa ona afərin düşür... Məntiq belədir. ...***

- Bəli, Azərbaycan gözləməkdən yorulub. Amma hələlik nizamlanmada vəziyyət kritik deyil. O, pisdir, amma tənqidi deyil. Buna görə də, prinsipcə, vaxt var.

***- Qarabağ məsələsi necə olacaq?***

- Qarabağ Azərbaycanın bir parçasıdır. Bu o deməkdir ki, vasitəçi Ermənistan üçün elə şərait yaratmalıdır ki, o, nəinki bununla razılaşsın, hətta bu razılaşmanı real müstəviyə çevirsin.

***- İndi müntəzəm olaraq rəsmi Yerevan bəyan edir ki, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, Ermənistan xarici işlər nazirinin simasında bizim Qarabağ ermənilər ilə danışıqlarla heç bir əlaqəmiz yoxdur, danışıqları Bakı və yerli ermənilər aparmalıdır,- bu, İrəvanın vəziyyəti tanınmağa hazır olduğuna işarədir?***

- Müəyyən dərəcədə, bəli. Amma tez nəticə Ermənistan üçün indi sərfəli deyil. İrəvan Qərbin davam edən işlərinin Ermənistanın mövqeyini necə yaxşılaşdıra biləcəyini anlamağa çalışır. İrəvan bundan nəsə qazanacağına inanır.

**Tərcümə - Elçin Bayramlı**



## "Qərb və Rusiya sülh müqaviləsinin imzalanmasına niyə mane olur?

*EKSPERT MÜNASİBƏT BİLDİRDİ*

"Hesab edirəm ki, sərhəddə də, Qarabağda da iyunun ortalarına qədər təxribatlar davamlı olacaqdır. Artıq danışıqlar intensivləşdikcə, bir sıra razılıqlar əldə olunduqca atışmalar olacaq. Çünki Ermənistan bəzi şeylərlə razılaşsa da, müəyyən qüvvələr var ki sülh müqaviləsinin imzalanmasını istəmirlər. Məlumdur ki, həm Qərbin, həm də Rusiyanın bu məsələdə maraqları toqquşur". Bu sözləri SİA-ya açıqlamasında hərbi-siyasi ekspert Telman Qasımov deyib.

Onun sözlərinə görə, bu baxımdan bir tərəfdən Rusiyanın, digər tərəfdən Qərbin Paşinyana təzyiqlərini müşahidə edirik: "Son zamanlarda İran Ermənistandan üz döndərib. Bu da regionda baş verən yeni layihələrlə bağlıdır. İran və Rusiya arasında yeni müqavilələr, şimal-cənub yolunun açılması da buna təsir göstərir. Rusiyanın da tapşırığı ilə İran Ermənistandan müəyyən qədər uzaqlaşaraq Azərbaycanla münasibətləri düzəltməyə çalışır. Ona görə də regionda, xüsusilə də Zəngəzurda getdikcə maraqlar toqquşur".

Ekspert sözlərinə davam edərək bildirib ki, Avropa da Qafanda yerli əhalinin iqtisadi-siyasi vəziyyətinin yaxşılaşması üçün 50 milyon avroya qədər maliyyə yatırımı edib: "Həm atom sistemləri üçün, həm də dərmanların hazırlanmasında istifadə olunan uran adlanan kimyəvi yeraltı sərvətin çox böyük bir hissəsi Zəngəzurdadır. Ona görə də Qərb də, Rusiya da Zəngəzura sahib olmaq arzusundadır. Hər kəs öz oyununu oynayır və vəziyyəti gərginləşdirir ki, konflikt həll olmasın".

**Ləman Əlizadə**

ARAŞDIRMA

# Dünyanın ən səsli-küylü şəhəri



Söhbət Bakıdan gedir. Həm yerli sakinlər, həm müxtəlif bölgələrimizdən, həm də istənilən ölkədən şəhərimizə qonaq gələnlərin hər biri yekdil olaraq bu fikri təsdiqləyər ki, Bakı çox səsli-küylü şəhərdir. Bu səsi-küyü yaradan kimdir, nədir? Biz insanlarmı? Bəli, biz insanlar. Çığır-bağır salmaqla özümüz bu səs-küyü yaratmasaq da, avtomobillərimizdən yeri gəldi-gəlmədi verdiyimiz siqnallar bu şəhərin həyat ritmini pozub, hüzurunu qaçırıb. Günü-gündən artan siqnal səsləri insanları təngə gətirib. Nə küçədə rahat gəzə, nə parkda sakit bir guşəyə çəkilə bilirsən. Nə istidən bağrın çatlayan evində, iş otağında pəncərəni aça bilirsən. Günün istənilən vaxtında, hətta gecə yarısında belə yuxuların ərşə çəkilir. Səbəb siqnallardır.

## Siqnalvermə səbəbləri

Siqnalvermənin qanunla tənzimlənən səbəbləri var. Bu, məsələnin əsas tərəfidir, bu barədə danışacağıq. Lakin biz niyə siqnal veririk? Hələlik, bunu açıqlamağa çalışaq. Hazırda şəhərimizi ağuşuna alan siqnallar yersiz siqnallardır ki, bu da digər bəzi məsələlər kimi, artıq dəb halını alıb. Siqnalvermə eyni zamanda ünsiyyət vasitəsinə çevrilib. Məsələn, kimsə bazardan gəlir, həyətdə maşından uğultulu siqnal səsi ətrafı bürüyür, bu həyat yoldaşını aşağı çağırmaq metodudur. Həyat yoldaşı aşağı düşüb bazarlığı yuxarı qaldırır. Tək bazarlıqdan yana yox, məsələn, hansısa bir sənəd, açar yaddan çıxıbsa, yaxud ata uşağı baxçaya, məktəbə, ailə üzvlərini gəzməyə, toya-düyünə aparmaq üçün gəlibsə, əziyyət çəkib telefonunu çıxarıb evinə zəng vurub demir ki, gəlmişəm, enin. Birbaşa siqnal verir ki, gəlin.

İki dost avtomobil idarə edərkən küçədə qarşılaşır. Siqnal nədir, onların salamlaşma metodudur. İşıqforda maşınlar dayanıb. Arxadakılar da təbii ki, bir-birinin ardına düzülüb gözləməlidirlər ki, vaxt tamam olsun. Lakin onlar səssiz gözləyə bilmirlər. Siqnallar hökmən ətrafa beyinləri çatladan bir "melodiya" yaymalıdır. Sürücülər bilə-bilə ki, avtomobillər işıqforu gözləyir, dayanmadan-durmadan siqnal verirlər.

Elə sürücülər bir haya bənddir ki, bir nəfər siqnal verə, vəssalam. Səssəsə verib elə bir vəziyyət yaradırlar ki, evində, iş otağında insanlar bir-birinin danışığını belə eşitmir. Düşünürsən ki, İlahi, bu, nə mədəniyyətdir görəsən, bu sürücülər nümayiş etdirir? İlahi, görəsən nə xəstəlikdir bu sürücülər mübtəla olub?..

## Əslində, siqnal nə zaman verilməlidir

Yol hərəkəti qaydalarında səs siqnallarından istifadəyə yol verilən hallar dəqiq və aydın şəkildə göstərilmişdir. Nəqliyyat vasitələrində səs siqnallarından yalnız iki halda istifadə oluna bilər: 1) yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün. Bu halda səs siqnalı başqa hərəkət iştirakçılarının diqqətini cəlb etməyə, onları daha diqqətli olmağın, qaydalardan kənara çıxan, təhlükə yaradan hərəkətlərdən çəkinməyin zəruriliyi barədə xəbərdar etməyə yönəlib. Bu məqsədlə səs siqnalı həm yaşayış məntəqəsində, həm də bundan kənar yollarda verilə bilər. Lakin işıqforda qabaqda dayanan avtomobilin bir az ləng tərpənməsi kimi hallar heç bir halda qəza vəziyyəti sayılmır və belə hallarda səs siqnalı vermək qəti qadağandır. 2) yaşayış məntəqəsindən kənarda ötmə niyyəti haqqında başqa sürücüləri xəbərdar etmək üçün zəruri olan hallarda. Səs siqnalından bu məqsədlə yaşayış məntəqəsində istifadə qadağandır.

Beləliklə, yuxarıda da aydın göründüyü kimi, əslində siqnal çox zəruri hallarda verilməlidir. O da ki, əgər sürücü işinin ustasıdırsa, necə gəldi avtomobil idarəetmə sahibi olmayıbsa, təbii ki, az hallarda baş verəcək. Səs siqnalının verilməsinə yol verilən hal olduqda isə sürücülər bu siqnalı zəruri müddətdən artıq verməməlidirlər.

Qanunvericilik səs siqnallarından istifadə ilə bağlı məsuliyyəti də hüquq pozuntusuna görə fərqləndirir. İnzibati Xətalar Məcəlləsinin (İXM) 151-2.2-ci maddəsi nəqliyyat vasitəsində mövcud olan standarta uyğun səs siqnalından qaydaları pozmaqla istifadəyə (yəni yuxarıda göstərilən iki haldan başqa digər hallarda səs siqnalı verməyə) görə 30 manat cərimə nəzərdə tutur. Nəqliyyat vasitəsinə standartdan kənar çoxavazlı səs siqnallarının qoyulması isə İXM-in 155.7-ci maddəsinə əsasən, 500 manatdan 800 manatadək cərimənin tətbiqinə səbəb olur. Özü də belə siqnal müsadirə edilməli, onun nəqliyyat vasitəsinin dayandırıldığı yerdə sökülməsi mümkün olmadıqda isə həmin nəqliyyat vasitəsi mühafizə olunan duracağa (cərimə meydançasına) yerləşdirilməlidir. Cərimə meydançasına qoyulumş belə avtomobil yalnız həmin qanunsuz siqnalı söküldükdən sonra sahibinə verilə bilər. Həmin siqnal müsadirə olunur və sürücü 1000 manatadək cərimə edilir. Müsadirə olunan avadanlığın qiyməti isə 5000 manatadək dəyərindədir. Lakin bununla iş bitmiş olurmu? Xeyr, cərimələr sürücüləri həmin siqnalların istifadəsindən uzaqlaşdırmır. Bunu şəhərimizdə açıq şəkildə görmək mümkündür.

## Küçələrimizdə hər an toy karvanı...

Ölkəmizdə ailə, ailə dəyərləri əsrlərdən bəri xalqımızın ən müqəddəs adət-ənənəsi kimi qorunub saxlanılır. Bu səbəbdən də toy mərasimlərində gəlinin ata evindən çıxıb yeni bir ocağa üz tutması maşın karvanının müşayiəti ilə olur və bu vaxt sürücülər maşınlardan siqnal verib yeni ailənin qurulmasının təntənəsini artırır, hər kəsin bu hadisəyə sevincini ifadə edirlər. Bu adəti xalqımız uzun illərdən bəri yaşadır.

Toy mərasimlərində siqnalların verilməsi "Yol hərəkəti haqqında" Qanunda yaşayış məntəqələrindən uzaqda nəzərdə tutulsa da, illərdir ki, bu siqnallar düz qapılarımızın ağzında verilir. Bunu heç bir aid təşkilat qəbahət hesab etmir. Çünki xalqımızın hər bir üzvü ailə dəyərlərinə, milli adət-ənənələrimizə böyük sayğı ilə yanaşır.

Bu gün şəhərimizdə hər an toy-düyündür sanki. Yersiz siqnallar adamda elə təəssürat formalaşdırır ki, yəqin yoldan gəlin karvanı keçir. Gedib baxırsan ki, karvan nədir, maşınlar işıqforda dayanıb gözləyirlər, lakin siqnal səsi ətrafı bürüyüb.

Beləliklə, biz toy kimi bir adətin də mahiyyətini ucuzlaşdırırıq. Siqnal səsi gələn kimi təxəyyülümüzdə canlanan toy mərasimi ilə qarşılaşmayanda bu siqnalların aidiyyatı olmadan verilməsi bir adət-ənənəni də sanki adiləşdirir.

Siqnal səsləri əsəblərimizi o qədər korlayır ki, başımızı götürüb getməyə yer axtarırıq. Bəs görəsən bu sürücülərin ailəsi, uşağı, böyüyü yoxdurmu? Onlar arasında xəstə, körpə olanı necə, yoxdurmu? Bəs belə isə siqnal verəndə ətrafdakı xəstə olanları, uyuyan körpələri, istirahət edən yaşlıları, iş yerlərində zehni işlə məşğul olan insanları düşünürlərmi?

Məncə əsla düşünmürlər. Düşünsələr, əvvəldən özlərini bu siqnal sevdasına düşməkdən çəkindirərdilər. Beləliklə, bu qənaətə gəlmək olur ki, biz birgə yaşadığımız şəhərdə bir-birimizə hörmət bəsləmirik. Hər gün, hər an birbirimizi təhqir edir, əsəbləşdirir, sağlamlığı ilə oynayırıq. Hələ eşidəndə ki...

## Qısa, orta uzunluqda, lap uzun siqnal

Bəli, eşidəndə ki, siqnallar həm də söyüş vasitədir, dəhşətə gəldim. Deməli, avtomobil idarə edənlər həm də siqnallardan söyüş növü kimi istifadə edirmişlər. Məsələn, bir qısa siqnal yüngülvarı, orta uzunluqda siqnal bir az ondan artıq, lap uzun siqnal isə ağır söyüş növü imiş.

Təbii ki, bu sadaladıqlarım bəzi sürücülərə şamildir. Çünki çox mədəni, ətrafdakı hadisələrə aqressiv deyil, səbirlə yanaşan, avtomobilin siqnalını qanunauyğun şəkildə istifadə edən yüzlərlə insan var ki, onlar həyatda söyüşün nə olduğunu bilmirlər. Lakin ağzısöyüşlü, dalaşqan, səbirsiz, özündən tez çıxan insanlar da var ki, nəinki kənarda, hətta ailəsində belə söyüş söyləməkdən utanmırlar.

Ardı Səh. 14



Elçin Bayramlı

# Sonun başlanğıcı

## Elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır

"Biz ətrafımızı o qədər dəyişmişik ki, indi orada mövcud olmaq üçün özümüzü kökündən dəyişməliyik " Viner Norbert (ABŞ riyaziyyatçısı, "kibernetikanın atası")

Qlobal istiləşmə şəraitində Arktika və Antarktidakı, həmçinin Qrenlandiyadakı buzlaqların əriməsi sürətlənib. Artıq buz təbəqəsindəki ərimənin qarşısını almaq mümkün deyil. Son 20-30 ildə bu ərimə daha da sürətlənib və buz təbəqələri çox böyük ölçülərdə yoxa çıxıb. Hətta təxminən 10 il qabaq BMT baş katibi Arktikanın əriməsini öz gözləri ilə görmək üçün gəmi ilə şimal qütbünədək getdi. Əvvəllər buz təbəqəsindən atom buzqıran gəmilərlə belə yaxınlaşmağın mümkün olmadığı yerlərə adi gəmi ilə rahatca gedib gəldi.

Son bir neçə min ildə bircə dərəcə belə istiləşməyən planetimizin orta tempraturu son 1 əsrdə 3 dərəcə artıb ki, bu da faktiki fəlakət siqnalıdır. Antarktidada tarixdə ilk dəfə 20 dərəcədən yuxarı temprutur qeydə alınıb. Sibirdə temprtatur 40 dərəcəyə çatıb. Son elmi məlumatlar əriməmin ehtimal olunandan 100 dəfə daha sürətlə getdiyini göstərdi. Hesablamalara görə, təkcə Qrenlandiyanın əriməsi dəniz səviyyəsini 7 metr qaldıracaq, bu özlüyündə böyük fəlakətdir, bunun üzərinə Arktika və Antarktidanın da əriməsini əlavə etsək, vəziyyəti təsəvvür etmək çətin olmaz.

Daha açıq desək, bunlar nəhəng qlobal kataklizmlərin başlayacağını göstərən əlamətdir. Dağlarda buzlaqların əriməsi isə tezliklə qlobal içməli su böhranı yaradacaq və hətta su müharibələrinin baş verəcəyi ehtimal olunur. Konkret olaraq bu proses antropogen təsirlərin, yəni birbaşa insan fəaliyyətinin nəticəsidir. Baxmayaraq ki, iri sənaye oliqarxlarının oyuncaq "elmi" mərkəzləri diqqəti problemin əsas səbəbindən yayındırmaq üçün bəşəriyyətə nağıl danışırlar. Guya ki, bu vəziyyət Günəşdə gedən hansısa proseslər, nə bilim, kosmosda baş verən hansı proseslərin təsiri ilə imiş. Halbuki, elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır.

Burada yeganə təqsirkar insanların özləridir. Kapitalizm sistemi planetdə bütün canlı aləmin axırına çıxmağa rəvac verir. Lazımsız istehsal həcmi, vəhşicəsinə istehlak qudurğanlığı, lüzumsuz rəqabət mühiti və çoxlu sərvət əldə etmək həyasızlığı dünyanı məhvə aparır. Qısası, öz evimizi, yəni dünyamızı şüursuzcasına dağıtmaq, bütün canlı üçün biz insanlar əlimizdən gələn hər şeyi edirik.

Ultrakomfort həyat arzusu, fasiləsiz istehlak xəstəliyi, dəb və özünü başqalarından üstün göstərmək sindromu dünyanın axırına çıxır. Bəzi nüfuzlu alimlərin fikrincə, artıq planetimizi, canlı aləmi xilas etmək, bu qorxunc prosesi dayandırmaq və hər şeyi geri qaytarmaq üçün son imkanlar da itirilib.

Ekoloq alimlər artıq planetimizdəki ekoloji proseslərin qarşısıalınmaz, geridönməz formaya keçdiyini etiraf edirlər. Yəni biz ,necə deyərlər, "bir balaca" gecikmişik. BMT-də dünya dövlətlərinin nümayəndələri müzakirə apardılar ki, qlobal istləşmənin sürətini azaltmaq üçün istehsal və atomosferə tullantılarının həcmi azaldılsın.

Hətta maksimum tədbirlər belə ümumi orta temperaturun artımını 3 dərəcədən aşağı salmağa qadir deyil. Halbuki dövlətlər minimum azalmanı belə qəbul etmək istəmirlər. Bunun üçün Kioto protokoluna baxmaq kifayətdir. İri dövlətlər protokola qoşulmamaqla göstərdilər ki, onlar planetimizin xilasında yox, özlərinin dəvəqəti nüfuz və üstünlüyündə maraqlıdırlar. Kasıb ölkələr isə deyirlər ki, biz də sizin kimi yaşamaq istəyirik, ona görə də sənayeni azalda bilmərik.

Misal üçün, ABŞ təkbaşına dünya ekologiyasının korlanmasında 40 faizlik paya malikdir. Halbuki onun əhalisi dünya əhalisinin cəmi 3 faizini təşkil edir. Çin və Hindistan deyirlər ki, biz hərəmiz milyard yarım əhalini təmin etməliyik, insanlarımızın varlı ölkələrdəki kimi yaşamaq haqqı var, ya hamı eyni yaşayacaq, ya da biz heç nəyi ixtisar edən deyilik, yəni zərərli sənaye sahələrini və onun tullantılarını azaltmayacağıq. Bax, dünyamız belə bir şüursuz vəziyyətdə dağılmağa doğru gedir. Bunun səbəbi, hələ də dünyamızda ədalətli və ağıllı insan cəmiyyəti qura bilməməyimizdədir. Nə qədər ki, insanlar sağlam təfəkkürə yiyələnə bilməyib, labüd bəşəri fəlakətdən sığortalanmaq mümkün olmayacaq. Artıq sonun başlanğıcındayıq...

# Dünyanın ən səsli-küylü şəhəri



Əvvəli Səh. 13

Belələri avtomobil idarə edərkən hər hansı bir hadisəyə dərhal aqressiv münasibət bildirir. Səsi çatmadığı üçün siqnal növlərindən istifadə etməklə "ürəyini başaldır". Ta düşünmür ki, bu kimi vəziyyətin sonu yaxşı bitməyə də bilər. Bu sürücülər bir qısa siqnalla guya ki, kimə isə səhvini anladır, yüngülvari söyüşlə özünü göstərir. Orta uzunluqda siqnal verməklə ətrafındakı, qarşısındakı sürücüyə səhv hərəkət etməsini bir az ağır söyüşlə ifadə edir. Uzun siqnal verəndə isə, necə deyərlər, ağzına gələni danışır.

Lakin onu da qeyd edək ki, özünə, avtomobildə yanında əyləşən ailə üzvlərinə, dost-tanışına hörməti olan insan bu hərəkəti əsla etməz. Çünki artıq bu şəhərdə hər kəs siqnalların həm də söyüş növü olduğunu çox gözəl bilir.

## Bəs dünya siqnal məsələsinə necə baxır?..

Xarici ölkələrdə siqnal vermək nəinki qadağandır, eyni zamanda insanları təhqir etmək kimi qəbul olunduğundan,





qanuna müraciət edildiyi təqdirdə vətəndaşı bu formada narahat edən şəxs cəzaya məhkum olunur.

Məsələn, ABŞ-ın Arkanzas ştatında axşam saat 9-dan sonra siqnal vermək qadağandır. Bununla ətrafda yaşayan sakinlərin dincliyi qorunur.

Qonşu Rusiyada, ümumiyyətlə, siqnal səsi eşitmək çox təsadüfi halda mümkündür. Orada yol mədəniyyəti Azərbaycana nisbətən daha yüksək səviyyədədir. Rusiyada siqnalla bağlı baş verən maraqlı bir hadisədən uzun zamandır ki, hamı danışır: yolda əyləci basıb arxadakı avtomobilin hərəkətinə mane olan "Hummer H1"in sürücüsü bir nəfəri maşına mindirir və asta-asta, həm də dayanaraq hərəkət edir. Arxadakı səbirsiz sürücü isə siqnaldan əlini çəkmir. "Hummer"in sərnişini əlində noutbuk maşından düşərək dayanmadan siqnallayan sürücünün avtomobilini bloka salır və avtomobil sönür. Haker olduğu bildirilən sərnişin dərhal avtomobilə əyləşərək hadisə yerindən uzaqlaşır.

Rusiyada azərbaycanlı olan bir şəxslə bağlı bir hadisə. Deməli, Rusiyanın şəhərlərindən birində bir avtomobildə bir



neçə azərbaycanlı gedirmiş, qarsıda da bir avtomobil. Həmin avtomobildən yüksək musiqi və siqnal səsi ətrafı bürüyür. Arxadakı maşındakı adamlardan biri deyir ki, o azərbaycanlıdır. Mərc edirlər. Qarşıda maşını saxladıb soruşurlar, görürlər ki, həqiqətən azərbaycanlı imiş.

Hindistanın Mumbay şəhərində sürücülərin lazımsız yerə siqnal verməsinin qarşısını almaq üçün işıqforlara səsölçən qurğular quraşdırılıb. Yeni sistemdə siqnal səsləri 85 desibeldən çox olduqda işıqforlar sıfırlanır. "Nə qədər çox siqnal versən, bir o qədər də gözləyəcəksən" şüarı ilə yeni sistem ölkədə təqdim edilib.

Dünyanın ən səsli şəhərlərindən biri hesab olunan Nyu-Yorkda lazımsız yerə istifadə olunan siqnallar üçün tətbiq olunan cərimənin məbləği 400 dollardır.





## Siqnalların səsini necə kəsək?

Şəhərimizdə avtomobil sayı minlərlədir. Yəni bu şəhər üçün labüd avtomobillər çoxluq təşkil edir. Hər birimizə məlumdur ki, DİN əməkdaşları- yol polisləri yol-hərəkət qaydalarının tənzimlənməsi, yarana biləcək yol qəzalarının qarşısının alınması məqsədilə gecə-gündüz çalışırlar. Biz onları tez-tez şəhər sakinlərinin rahatlığına xidmət edən fəaliyyətlərdə görürük.

Avtomobillərin yersiz siqnallarının da qarşısı çox halda onlar tərəfindən alınır. Belə deyək ki, avtomobil sürücüləri yol polislərinə məxsus xidməti avtomobilləri harada görürlərsə, özlərinə xüsusi çəki-düzən verirlər. Nə siqnal vermək, nə işıqfordan bir an tez keçmək və yaxud hansısa bir qanun pozuntusuna əsla yol vermirlər.

Lakin bu böyüklükdə şəhərdə hər bir avtomobil sahibini də ayrı-ayrılıqda başa salmaq mümkün olmaz ki, siqnal verməsin. Gərək insanların özündə mədəni səviyyə yüksək ola. Yuxarıda vurğuladığım kimi, ailəsinə, yaşlısına, körpəsinə hörməti olan adam yersiz siqnaldan istifadə etməz. Ailə tərbiyəsi görən sürücü siqnaldan söyüş vasitəsi kimi istifadə etməz. Ətrafdakı uşaq baxçalarında, məktəblərdə işin ahəngini pozmaz. İnsanları iş yerlərində rahat buraxar.

Yersiz siqnalların səsinin kəsilməsi üçün cərimə məbləğinin ən yüksək həddə çatdırılmasından gözəl variant ola bilməz. Elə bir məbləğ təyin olunmalıdır ki, bunu ödəməli olan sürücülərə baha başa gəlsin. Bəlkə belə olarsa, başımızıbeynimizi aparan siqnal səslərindən yaxa qurtara bilərik.

Unutmayaq ki, xarici ölkələrin hər birində insanların qayda-qanunlara tabe olmasında uzun illərin cərimə təcrübələri mövcuddur. Həm də yüksək həddə cərimə metodları. Düşünürəm ki, yersiz siqnalları yalnız bu yolla susdura bilərik və gözəl Bakımızı dünyanın siqnal verilməyən şəhərlərindən birinə çevirə bilərik.

***Mətanət Məmmədova***



## Nar triatlon üzrə "IronWind" açıq turnirinədəstək olub

**Nar ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "IronWind" açıq turnirinə dəstək olub. Pirallahı adasında təşkil olunan triatlon yarışında müxtəlif ölkələri təmsil edən 100-dən çox idmançı iştirak edib.**

Üç mərhələdən ibarət olan turnirdə idmançılar əvvəlcə 1.9 kilometr üzüblər, sonra 90 kilometr velosiped sürüblər və sonda isə21.1 kilometr qaçıblar. Kişilər arasında qalib Oleksandr Mordasov olub. Teymur Fərəcov yarışı ikinci, Konstantin Vedmedisə üçüncü pillədə başa vurublar. Qadınların mübarizəsində isə ilk üç yeri müvafiq olaraq, İnna Anisimova, Rabiyə Oruclu və Natalya Vallek tutublar. Bundan əlavə, turnirdə mübarizə aparan üçparalimpiyaçı da Nar tərəfindən mükafatlandırılıb.

Qeyd edək ki, yarış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Triatlon Federasiyası, Baku City Circuit və "Triterra" klubunun birgə təşkilatçılığı iləkeçirilib. Turnirin əsas dəstəkçilərindən olan Nar-ın korporativ sosial məsuliyyət (KSM) istiqamətlərindən biri də sağlam həyat tərzinin təşviqidir. Mobil operatorun KSM sahəsində gerçəkləşdirdiyi layihələrlə buradan tanış ola bilərsiniz.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Qarabağın Azərbaycan iqtisadiyyatında payı: talanmış yataqlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*







V YAZI

Azərbaycanın yeraltı sərvətlərlə ən zəngin bölgələrindən biri də Qarabağdır. Kəlbəcər, Laçın, Zəngilan, Tərtərdə 163 adda müxtəlif qiymətli metal: qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar və digər yataqlar mövcuddur. Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 16 yeraltı şirin su və 10 müalicəvi mineral su yatağı mövcud olub. Bu sərvətlər işğal dövründə erməni vandalları tərəfindən vəhşicəsinə istismar edilərək dünya bazarında satılıb.

## Dünyanın ən bahalı 10 maddəsindən biri Qarabağdadır

Ermənilərin Qarabağ üçün bu qədər mübarizə aparma səbəblərindən biri də torpağının altı da, üstün də sərvət olmasıdır. Qarabağın daşı da, çiçəyi də qiymətlidir. Dünyanın başqa heç yerində bitməyən dərman bitkiləri, nadir təbii materiallar Qarabağ iqtisadiyyatına böyük dəstək verə bilər. Qarabağdakı nadir yataqlardan biri də civə yataqlarıdır.

Civə dünyada yeganə metaldır ki, otaq temperaturunda maye halına düşür. Əvvəllər ondan tibbdə istifadə edirdilər. Lakin sonradan məlum oldu ki, civə buxarlandıqda zəhərli qaza çevrilir və insanı öldürə bilər. İndi civə qeyri-bioloji sahədə istifadə olunur və olduqca bahalı maddə hesab edilir. Ağqaya civə yatağı Kəlbəcər rayonunun ərazisində, Tərtər çayın sağ sahilində, Qarabağ silsiləsinin şimal-şərq yamacında eyniadlı kəndin yaxınlığındadır. Struktur cəhətdən yataq uzununa və köndələn qırılma zonalarının qovşağında yerləşir. Ağqaya civə yatağında hidrotermal dəyişmiş 7 civədaşıyan zona aşkar edilib.

Bu zonaların uzunluğu 300 metrə, qalınlığı isə 10-15 metrə çatır. Ehtimallara görə Ağyataq, Levçay, Çorbulaq, Qamışlı və Ağqaya yataqlarında min tondan artıq civə ehtiyatları var. Civə strateji əhəmiyyətli element, hərbi təyinatlı maddədir. Yatağının doğru istifadəsi və istismarı ölkəmiz üçün faydalı və gəlirli sahə ola bilər. Lakin işğal dövründə digər milli sərvətlərimiz kimi civə yataqları da talana məruz qalıb, qeyri-peşəkar formada istismar edilib. Araşdırmalardan sonra yatağın potensialı, satış faizi barədə nəsə demək olacaq.

## 30 şirkət 30 il sərvətimizi sümürüb

Torpaqlarımız işğalda olduğu dövrdə işğalçılar yeraltı mineral xammal ehtiyatlarına ciddi ziyan vurub. Regiondakı 4 iri yataq ciddi şəkildə istismar edilib və ətraf aləmə böyük ekoloji ziyan vurulub. Bu işdə erməni işğalçıları tək olmayıb, onlara xarici şirkətlər və investorlar yaxından kömək ediblər. Eyni zamanda həmin şirkətlər təbii ki, istismar edilən yataqlardan öz paylarını alıblar. İşğaldan azad edildikdən sonra regionda hər bir yatağın ayrı-ayrılıqda monitorinqi aparıldı və bərpası istiqamətində işlərə başlandı.





Ümumiyyətlə, Azərbaycanın Dağlıq Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı var.

Milyon tonlarla qurğuşun, yüz tonlarla qızıl, 10 milyon tonlarla sink və s. ehtiyatların həcmini düşündükdə Qarabağın Azərbaycan iqtisadiyyatındakı əhəmiyyətli potensialını təxmin etmək olur. Bu səbəbdəndir ki, mənfur qonşuların Qarabağa olan hərisliyi, habelə dünya ölkələrinin bu əraziyə hökmranlıq edən ölkəyə marağı böyükdür.

İşğalda ikən Zəngilan rayonu ərazisində sübut olunmuş sənaye ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis olan Vedjneli qızıl yatağı da işğalçıların əlinə keçdi. Daha dəqiq desək, Azərbaycanın işğal olunmuş ərazilərində sənədləşdirilmiş təsdiq olunmuş sənaye ehtiyatları ilə zəngin 3 qızıl yatağı var idi ki, bunlar da Zəngilan rayonundakı Vedjneli, Ağdərə rayonunda Qızılbulaq və Kəlbəcər rayonundaki Zod yataqlarıdır. Dağlıq Qarabağın işğal olunmuş ərazilərində təbii sərvətlərin talan edilməsi məqsədilə 30-dan çox şirkət yaradılmışdı. Kəlbəcər rayonunun Heyvalı kəndi yaxınlığında yerləşən mis və qızıl yatağının kəşviyyat və istismar məqsədi ilə ərazi də inşa edilmişdi.

İşğaldan azad edilmiş ərazilərimizdə olan faydalı qazıntı yataqları həm Azərbaycan iqtisadiyyatında önəmli bir paya sahib olacaq, həm də bölgədə məskunlaşacaq insanların iş yerlərinin əsaslı təminatını təşkil edəcək. Eyni zamanda bu faydalı qazıntı yataqları o torpaqlara xarici investisiya cəlb edəcək, əraziyə investor axını olacaq və bütün bunlar bölgə iqtisadiyyatının dirçəlməsinə xidmət edəcək.

## Ölkəmizin mineral su ehtiyatının 40 faizi işğalda idi

Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 39.6%-i işğaldan azad olunmuş rayonların payına düşür. Azadlığa qovuşmuş ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları var. Bu 7805 m3/gün mineral su təchizatı deməkdir.

Mineral su ehtiyatlarından xüsusilə Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda Ilıqsu, Minkənd, Şuşarayonunda Turşsu, Sırlan və başqa mineral sular vacib əhəmiyyətli təbii sərvət hesab edilir. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə fərqlənir.

İstisu bulağı üstündə keçən əsrin 80-ci illərində iri kurort və mineral sudoldurma zavodu tikilib. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi. Turşsu mineral bulağı Azərbaycanın Şuşa şəhərinin 17 km-lik məsafəsində yerləşir. Turşsu vasitəsi ilə müxtəlif daxili xəstəliklər müalicə olunur, kəmər vasitəsi ilə Şuşa şəhərinə su verilirdi. Şəfalı su bütün şəhər əalisi üçün əlçatan idi.

İşğalda olduğu 30 ilə yaxın müddət ərzində bu bulaqların suyu da vəhşicəsinə istismar edilərək müxtəlif adlarla dünya bazarına ixrac edilib, saxta markalarla ermənilərə küllü miqdarda gəlir gətirib. İşğalı dövründə Qarabağın təbii sərvətlərinə verilən zərər milyardlarla manat dəyərində ölçülür.





***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
7 iyun
2023-cü il

# Messidən ərəblərə ŞOK: Transferdən imtina etdi!




PSJ-dən ayrılan Lionel Messinin Səudiyyə Ərəbistanının ”Əl-Hilal” klubuna keçidi deyəsən düyünə düşüb. Məsələ burasındadır ki, argentinalı futbol ulduzu transferin 2024-cü ilə qədər təxirə salınmasını istəyib. ”Goal”-ın yaydığı xəbərdə deyilir ki, argentinalı hücumçunun nümayəndələri Ərəbistan klubunun nümayəndələri ilə görüş keçiriblər. Görüşdə ”Əl-Hilal” futbolçunun transferi ilə bağlı müqavilə bağlayacağınıı gözləsə də, Messinin özü bu danışıqları dayandırmağı və transferi bir il müddətə təxirə salmağı xahiş edib. Ərəb klununun təmsilçiləri Messinin nümayəndələrinə bildiriblər ki, əgər indi o, kluba keçməsə, bir ildən sonra eyni şərtlərlə müqavilə təklifi almayacaq.

***Mətləb Salahov***

# Azərbaycan kiberhücumlara hazırdırmı?

ARAŞDIRMA




Azərbaycanla Ermənistan arasında çıxan gərginliklər və ”soyuq müharibə” hərbi arenada davam etdiyi kimi ”kiber arena”da da davam edir. Onlar tez-tez bizim dövlət qurumlarımızın, rəsmi orqanların saytlarına hücum edir. Belə hücumların qarşısı bir çox halda alınsa da, təhlükə hər zaman aktual qalır. İstənilən dövlətin rəsmi orqanının, nazirliklərinin adicə saytlarına belə hücum olunması çox dəhşətli nəticələrə gətirib çıxara bilər. Hələ məlumat bazalarına, dövlət əhəmiyyətli məlumatların saxlanıldığı yerlərə hücumun nəylə nəticələnə biləcəyindən danışmıram.

Sözsüz ki, dövlətimiz bu məsələylə bağlı çox ciddi tədbirlər alır. Müxtəlif addımlar atır. Ancaq unutmaq olmaz ki, bu təhlükə hər an bizi düşmən kimi addımbaaddım izləyir. Siravi vətəndaşlarla yanaşı, dövlət rəsmiləri, dövlət qulluqçuları bu məsələyə çox diqqətlə yanaşmalıdır. Mobil cihazlarının, komputerlərinin yaddaşında rəsmi dövlət saytlarının, ”database”lərinin şifrəsi olan işçilər etibarsız linklərə girməməli, öz elektron cihazlarını daim nəzarətdə saxlamalı, şifrələrini heç kəslə paylaşmamalıdır.

Bütün bunlar ağlımıza müəyyən suallar gətirir. Azərbaycan kiberhücumlardan dövlət səviyyəsində necə qorunur? Bununla bağlı hansı addımlar atılır? Kiberhücum qanun çərçivəsində necə dəyərləndirilir.

Məsələni daha dərindən araşdırmaq üçün ”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzdən açıqlama aldıq. Həmin açıqlamanı təqdim edirik: ”Bu yaxınlarda Dövlət Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyi arasında kibercinayətlərlə bağlı səlahiyyətlərin konkretləşməsi yönündə addımlar atıldı. Bununla yanaşı Cənab Prezidentin əmri nəticəsində Daxili İşlər Nazirliyi yanında ”Kibercinayətkarlığa qarşı Mübarizə Baş İdarəsi” yaradıldı. Bu da atılan müsbət addımlardan biridir.

O.Gündüzün sözlərinə görə, Dövlət Təhlükəsizlik Xidməti daha çox milli təhlükəsizlik mahiyyəti daşıyan kiberçinayətlərə diqqət yetirməli, digər bütün kibercinayətkarlar , kiberxuliqanlıq, kiberdələduzluq və s. kimi məsələlərlə Daxili İşlər Nazirliyinin adıçəkilən qurumu məşğul olmalıdır: ”Eyni zamanda ötən il ”kritik informasiya strukturu” deyilən yeni bir anlayışlar qanunvericiliyə gəldi. Artıq Nazirlər Kabineti vacib dövlət qurumlarını müəyyən edəcək. Hansı ki, o qurumlar kritik qurumlardır. Yəni onların məlumat sisteminə, məlumat bazasına nəsə olarsa çox sayıda insan bundan ziyan çəkəcək. Onun da adı ”kritik informasiya strukturu” qoyuldu. Ona da əsasən Dövlət Təhlükəsizlik Xidməti və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizlik Dövlət Xidməti cavabdeh olacaq. O istiqamətdə də xeyli işlər görülüb. Düşünürəm ki, bu sahədə kadrların hazırlanmasında xeyli irəliləyiş var. Bu istiqamətdə qanunvericiliyi daha da təkmilləşdirmək, kadrların hazırlanmasını sürətləndirmək və maarifçilik işlərini gücləndirmək daha doğru olar”.

## İndiysə gəlin görək bayaqdan haqqında danışdığımız kiberhücum nədir?

Kiberhücum kompütera və ya hesablama sisteminə icazəsiz giriş əldə etməklə məlumatların oğurlanması və sistemin işinə zərər vurmaq məqsədi ilə həyata keçirilən aktdır. Bu cür halların qarşısını almaq üçün tədbir görmək üçün kiberhücumun nə olduğunu və onun növlərini öyrənmək vacibdir.

Kiberhücum, fokuslanmış sistemin çatışmazlıqlarını aşkar edərək və icazəsiz məlumat əldə etmək və ya dəyişdirməklə hesablama sisteminə hücum kimi səciyyələnir. Kiberhücumlar qeyri-qanuni olaraq müxtəlif ölçülərdə, fərdlər, qurumlar və dövlətlər arasında həyata keçirilir. Məlumatı oğurlamaq, dəyişdirmək hətta məhv etmək üçün istifadə edilən kompüter və internetə əsaslanan icazəsiz giriş üsulları birlikdə ”Kiber Hücumlar” kimi tanınır.

## Kiberhücumun məqsədi nədir?

Kiberhücumların ən çox bilinən məqsədi maliyyə mənfəəti üçün şəxsi məlumatların (şəxsiyyət, kredit kartı və ünvan məlumatları) toplanmasıdır. Bununla belə, siyasi və rəqabətli hücumlar sistemlər vasitəsilə də baş verə bilər.

***Fazil Mehdixanlı***

# Azərbaycan neftinin qiyməti 80 dollara yaxınlaşır

**Dünya bazarlarında ”Azeri Light” (CIF) markalı Azərbaycan nefti bahalaşıb. SİA xəbər verir ki, Azərbaycan neftinin 1 barelə olan qiyməti 1,38 ABŞ dolları və ya 1,77% artaraq, 79,52 ABŞ dolları təşkil edib.**



Qeyd edək ki, 2022-ci ildə ”Azeri Light” (CIF) markalı neftin bir barelinin orta satış qiyməti 103,58 ABŞ dolları təşkil edib. 2021-ci ilin göstəricisi ilə müqayisədə ötən il ”Azeri Light” (CIF) nefti 44,6% bahalaşıb.

# Arvadını bıçaqla öldürən şəxsin işi məhkəməyə göndərildi

**Daha bir cinayət işi üzrə aparılan istintaq prosesi yekunlaşıb. Belə ki, bu il fevralın 19-da Tərtər rayonunun ərazisində 1981-ci il təvəllüdlü Gülnar Məmmədova və 1992-ci il təvəllüdlü Namiq Allahverdiyevin öldürülmələrinə dair rayon prokurorluğunda başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.**

Rayon prokurorluğunun məlumatında deyilir ki, ibtidai istintaq zamanı 1970-ci il təvəllüdlü Asəf Məmmədovun heç bir əsaslı səbəb olmadan arvadı Gülnar Məmmədovaya bıçaqla, daha sonra isə Namiq Allahverdiyevə



odlu silah və bıçaqla xəsarətlər yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyənləşdirilib. Toplanmış sübutlar əsasında Asəf Məmmədova Cinayət Məcəlləsinin 120.2.2-ci (xuliqanlıq niyyəti ilə adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə) maddələri ilə yekun ittiham elan edilib və cinayət işi aidiyyəti üzrə baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**